Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 110 (8133) ÇƏRŞƏNBƏ AXŞAMI, 21 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Azərbaycan yeni dünya rekorduna imza atıb

### Bu, Dünya İqtisadi Forumunun inklüziv inkişaf naminə iqtisadi resurslardan səmərəli istifadə üzrə 2018-ci ilin hesabatında təsdiqlənib

Müasir dünya düzənində istənilən xalqın, dövlətin uğurlu gələcəyini təmin edən əsas göstəricilər iqtisadi islahatların tempi və miqyasından asılıdır. Əgər bu iki amil arasında harmoniya mövcuddursa, qarşıya qoyulan məqsədlər reallıqlarla uzlaşırsa iqtisadiyyatın müxtəlif sahələrinə tətbiq edilən yeniliklər faydasını verir, ölkənin iqtisadi göstəriciləri müsbətə doğru dəyişərək digərlərini sürətlə arxada qoyur və nəticədə əhalinin maddi rifah halı yaxşılaşır.

Söhbət adi şüarların şişirdilib təmtəraqlı təqdimatından yox, əksinə, düşünülmüş, iqtisadi hədəflərin sürətlə və ardıcıl dəf edilməsindən gedir.

Dünyanın əksər bölgələrində baş verən ağır iqtisadi proseslər, eləcə də qanlı toqquşmalar, vətəndaş müharibələri, dövlət çevrilişləri, qlobal təhlükələr oturuşmuş ölkələrdə belə reallığa çevrilmiş, milyonlarla insan misilsiz faciələrin aramsız davamı qarşısında aciz qalmışdır. Azərbaycanda isə həmin risklərin hamısı neytrallaşdırılmış, Prezidentin təbirincə desək, ölkəmiz bu gün dünya miqyasında sabitlik adasına çevrilmişdir.

Ardı 4-cü səh.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Qarşıdakı illərdə Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Ülyahəzrət II ELİZABET,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası***

---

Zati-aliləri!

28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Ölkələrimiz uzun illər boyu müxtəlif sahələrdə əməkdaşlıq edərək dostluq münasibətlərini davamlı olaraq inkişaf etdirmişlər. Ümidvaram ki, ölkələrimiz arasında qarşılıqlı faydalı və gələcəyə yönəlmiş sıx əməkdaşlıq münasibətlərini daha da dərinləşdirəcək və gücləndirəcəyik. Əminəm ki, bu proses xalqlarımız arasında mövcud dostluğun daha da dərinləşməsinə böyük töhfə verəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycan Respublikasına isə davamlı rifah arzu edirəm.

*Dərin hörmətlə,*

***Mun CE-İN,***
***Koreya Respublikasının Prezidenti***

---

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə ən xoş təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

---

Zati-aliləri möhtərəm Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi və ölkənizin qardaş xalqını ürəkdən təbrik etmək, Sizə ən xoş və səmimi arzularımı bildirmək mənə böyük məmnuniyyət bəxş edir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın sosial-siyasi həyatında reallaşdırılan əsaslı islahatları, ölkənizin iqtisadi potensialının və nüfuzunun artırılması işində qazanılan sanballı uğurları məmnuniyyətlə müşahidə edirik.

Əminəm ki, bizim birgə səylərimiz sayəsində Özbəkistan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq, ənənəvi dostluq və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq əlaqələri bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və davamlı inkişaf arzu edirəm.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Respublika Günü münasibətilə Sizə, Azərbaycan dövlətinə və xalqına Hindistan Hökuməti və xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Hindistan ilə Azərbaycan arasında tarixi əlaqələrə və müxtəlif sahələrdə əməkdaşlığa əsaslanan dostluq münasibətlərinin davamlı olaraq inkişaf etdiyini vurğulamaqdan məmnunluq duyuram. Əminəm ki, ikitərəfli əlaqələrimiz gələcək illərdə daha da möhkəmlənəcək və müxtəlif sahələrə yönələcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Ram Nat KOVİND,***
***Hindistan Respublikasının Prezidenti***

---

Zati-aliləri, Qardaşım İlham Heydər oğlu Əliyev!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və Hökuməti adından, şəxsən öz adımdan zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan dövlətinə və xalqına davamlı inkişaf və rifah arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*
*Qardaşınız*

***Salman bin Əbdüləziz AL SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

---

Zati-aliləri!

28 May - Respublika Günü münasibətilə Sizə və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına Əfqanıstan xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Mart ayında Sizinlə Qlobal Bakı Forumu çərçivəsində görüşməkdən, Azərbaycan Respublikası ilə Əfqanıstan İslam Respublikası arasında münasibətlərin müxtəlif sahələrinə dair müzakirələr aparmaq imkanı əldə etməkdən çox məmnun oldum. Bu gün əlaqələrimizin daha da inkişaf etməsini görməkdən də çox məmnunam.

Ölkələrimiz arasındakı dostluq əlaqələrinin və əməkdaşlığın genişlənməsi arzumu ifadə etməklə yanaşı, inanıram ki, Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə daha böyük inkişafa nail olacaqdır.

Zati-aliləri, Sizə cansağlığı, müvəffəqiyyət, dost Azərbaycan xalqına isə səadət və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Məhəmməd Əşrəf QANİ,***
***Əfqanıstan İslam Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Respublika Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına şəxsən öz adımdan, həmçinin Avstraliya Hökuməti və xalqı adından ən xoş arzularımı çatdırıram.

Şadam ki, bu il xalqlarımız arasında əlaqələr genişlənib və ölkələrimizin ticarət imkanları barədə məlumat mübadilələrimiz daha da artıb. Parlamentlərimiz arasındakı ikitərəfli mükəmməl əlaqələr demokratiya ilə bağlı bizim birgə öhdəliyimizin təzahürüdür. Avstraliya Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir.

Əminəm ki, ölkələrimiz arasında mövcud dostluq münasibətləri növbəti ildə də uğurla inkişaf edəcəkdir.

*Səmimiyyətlə,*

***Piter KOSQROV,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

---

Zati-aliləri!

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi İraq Respublikasının Hökuməti və xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə olan inamımızı bildirir, Sizə davamlı müvəffəqiyyətlər və işlərinizdə uğurlar arzulayıram.

Xahiş edirəm, ən dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Adil Abd Əl-MEHDİ,***
***İraq Respublikasının Baş naziri***

---

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına daha böyük inkişaf və rifah arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

***Məhəmməd bin Salman bin Əbdüləziz AL SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,***
***Baş nazirin müavini, müdafiə naziri***

## Bakı möhtəşəm finala hazırdır

### UEFA Avropa Liqasının kuboku Gəncədə nümayiş etdirildi



Futbol üzrə əsas Avropa kuboklarından biri - Avroliqa kubokunun qalibi mayın 29-da Bakıda Olimpiya Stadionunda keçiriləcək final oyunundan sonra müəyyənləşəcək. 2018/2019-cu illər Avropa Liqasında 213 komanda mübarizəyə qoşulmuşdu. Final görüşündə İngiltərəni təmsil edən iki klub - "Çelsi" və "Arsenal" üz-üzə gələcək.

Turnirin həlledici matçı ölkəmizdə ilk dəfə keçiriləcək. Həmin arenada 2020-ci il Avropa çempionatının final mərhələsinin üç matçı da oynanılacaq.

Bir müddət əvvəl keçirilmiş püşkatma zamanı finalın nominal ev sahibi müəyyənləşdirilmişdir. Bu, "Çelsi" klubudur.

Gözlənildiyinə görə, 70 minə yaxın tamaşaçı tutumu olan Olimpiya Stadionunda azarkeşlərin sayına görə yeni rekord vurulacaq. Əvvəlki rekord 1999-cu ildə Moskvada qeydə alınmışdır. O vaxt "Parma" - "Latsio" oyununu 62 min tamaşaçı izləmişdir.

Bakı finalı həm də Avropa Liqası tarixində VAR sisteminin tətbiq olunacağı ilk matçdır. Həm də oyun əlavə vaxta keçsə, komandalar daha bir oyunçu dəyişikliyi edə biləcək.

Avropa Liqasının həlledici görüşünü Canluka Rokkinin başçılığı ilə italiyalı hakimlər briqadası idarə edəcək.

Futbolçular və qalib komandanın məşqçilər korpusu üçün 40 medal ayrılmışdır. Qalib həm də 2019-2020-ci illər UEFA Çempionlar Liqasının qrup mərhələsinə birbaşa vəsiqə qazanacaq. Yeri gəlmişkən, "Arsenal" və "Çelsi" indiyədək Avropa kubokları yarışında cəmi bir dəfə üz-üzə gəlmişdir. Çempionlar Liqasının 2003/2004-cü illər mövsümündə dörddə bir final oyununda "Çelsi" 3:2 hesabı ilə ümumi qələbə qazanmışdır.

Mayın 19-da UEFA Avropa Liqasının kuboku Gəncə şəhərinə gətirilmiş və Heydər Əliyev adına meydanda futbol azarkeşləri və ictimaiyyət qarşısında nümayiş etdirilmişdir. Tədbirin təşkilində məqsəd idmansevərləri Bakı Olimpiya Stadionunda keçiriləcək Avropa Liqasının final oyununda təqdim olunacaq kubokla tanış etməkdir.

Kubok ictimaiyyətə təqdim olunduqdan sonra konsert proqramı təşkil olunmuşdur. İncəsənət kollektivləri maraqlı ifaları ilə tamaşaçılar qarşısında çıxış etmişdir. Bundan əlavə, əyləncəli oyunlar, yarışmalar və viktorinalar təşkil olunmuşdur.

## Ermənistanda inqilabın ikinci mərhələsi başlanır

### N.Paşinyan R.Koçaryanı Qarabağı Azərbaycana təhvil verməyə hazırlaşmaqda günahlandırır, sabiq prezident isə baş naziri dövlətə xəyanətdə ittiham edir

Ermənistanda baş verən hadisələr bu ölkədə vəziyyətin yenidən gərgin mərhələyə daxil olduğunu, bu gedişlə hətta daxili savaşın başlanacağını göstərir. Bütün bunlara əsas səbəb hakimiyyətdən bir il əvvəl devrilmiş hərbi xuntanın baş nazir Nikol Paşinyana qarşı hərəkətə keçməsidir.

Yaranmış durumda Ermənistanda pisləşən sosial-iqtisadi vəziyyət köhnə komandanın nəzarətində olan Qarabağdakı separatçı rejimin də hakimiyyətə qarşı daha aktiv fəaliyyətə keçməsinə rəvac verib. Sarkisyan-Koçaryan tərəfdarları Paşinyanı devirmək üçün daha mütəşəkkil qaydada hərəkət etməyə başlayıblar.

### Yeni xaos

"Past" qəzeti yazır ki, yaxın günlərdə Ermənistanın siyasi meydanında kifayət qədər ciddi və perspektivli yeni siyasi partiya ortaya çıxacaq. Məlumata görə, bu partiyada, əsasən, ictimaiyyətdə məşhur olan şəxslər toplanacaq. Qəzet partiyanın daha çox intellektual kəsim arasında fəaliyyətini genişləndirəcəyini və əyalətlərdə işə böyük əhəmiyyət verəcəyini bildirib.

Qeyd edək ki, bundan öncə Ermənistanın sabiq prezidenti Robert Koçaryan yeni partiya yaradaraq Paşinyana böyük zərbə endirəcəyini bildirmişdi.

Koçaryan "Reuters" agentliyinə verdiyi müsahibədə qüvvətli müxalif güclərin Paşinyana qarşı birləşəcəyini deyib.

Ardı 5-ci səh.

## Azərbaycan islam həmrəyliyinə mühüm töhfələr verir

Respublikamızın çoxvektorlu xarici siyasətinin əsas istiqamətlərindən biri müsəlman ölkələri ilə sıx əməkdaşlığın edilməsidir. Bu da ondan irəli gəlir ki, xalqımızın keçdiyi tarixi inkişaf yolu həm də müsəlman dünyasında gedən proseslərlə əlaqəli olub.

Avropa ilə yanaşı, müsəlman ölkələri ilə bərabərhüquqlu əməkdaşlığın Azərbaycanın xarici siyasət kursunun istiqamətlərindən biri olması məhz bu səbəbdən irəli gəlir. Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın ortaq mənəvi dəyərləri bölüşdüyü müsəlman Şərqi ilə siyasi, iqtisadi və mədəni münasibətləri formalaşıb. Bu arealda yerləşən dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın nəticəsi olaraq müsəlman dövlətləri Azərbaycanı bütün beynəlxalq məsələlərdə dəstəkləyir. Hətta onlardan bəziləri Dağlıq Qarabağ və ətraf rayonları işğal etdiyinə görə Ermənistanla diplomatik münasibətlər qurmayacaqlarını bəyan ediblər.

Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsi olaraq Azərbaycanın müsəlman dünyası ilə əlaqələri daha da möhkəmlənir, münasibətlərin dinamikası yeni mərhələyə qədəm qoyur. Diqqəti cəlb edən əsas məqam Şərq dövlətləri ilə əlaqələrin coğrafiyasının genişlənməsidir. Əvvəllər, ümumiyyətlə, münasibətlərimiz mövcud olmayan ölkələrlə əlaqələr qurulub, bəzi dövlətlərlə əməkdaşlıq daha da dərinləşdirilib.

Ən əsası Azərbaycanın müsəlman dünyasına yönəlik xarici siyasətinin uğurlu nəticəsi olaraq bu gün islam aləmində və beynəlxalq münasibətlər sistemində öz çəkisi olan dövlətlər ölkəmizin haqlı mövqeyini daim dəstəkləyirlər.

Azərbaycan da öz siyasəti ilə müsəlman dövlətlərini dəstəkləyir, islam dünyasının həmrəyliyinə layiqli töhfələr verir. Müsəlman aləmi bu gün narahat günlərini yaşamaqdadır. Təəssüf hissi ilə qeyd etməliyik ki, müasir dünyamızı başına alan qanlı qarşıdurmalar daha çox müsəlman ölkələrini əhatə edir. Onların bəziləri illərdir ki, siyasi-hərbi problemlərə sürükləniblər. İraq, Əfqanıstan, Suriya və Liviya kimi bir vaxtlar sabitliyin hökm sürdüyü dövlətlər "ərəb baharı" və s. adlar altında qurulan siyasi oyunların qurbanı kimi artıq neçə illərdir qan çanağına dönüblər.

Digər tərəfdən məzhəb ayrı-seçkiliyi bu gün islamın ən ağrılı problemi olaraq qalır. Bir çox müsəlmanlar hətta milli kimliklərini də unudaraq məzhəb kimliklərini önə çəkirlər. Ən ağrılı odur ki, bu problem daim xarici dairələr tərəfindən körüklənir, nəticə etibarilə qanlı qarşıdurmalar baş verir, terror baş alıb gedir.

Belə vəziyyətdə islam dövlətlərinin həmrəylik nümayiş etdirməsi olduqca vacibdir. Bu mənada Azərbaycan hər zaman müsəlman dövlətləri arasında birliyin təmin olunmasına, məzhəblər arasında ayrı-seçkiliyin bütün təzahürlərinin aradan qaldırılmasına yönəlik siyasət yürüdür.

Ardı 2-ci səh.

## Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 20 145 000 (iyirmi milyon yüz qırx beş min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2019-cu il*

## Z.K.Seretelinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Zurab Konstantinoviç Sereteli "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2019-cu il*

# Azərbaycan islam həmrəyliyinə mühüm töhfələr verir

*Əvvəli 1-ci səh.*

Çünki bu siyasəti həyata keçirməyə ölkəmizin tam mənəvi haqqı var. Ona görə ki, əhalisinin əksəriyyəti müsəlman dövləti olan Azərbaycandakı dini münasibətlər ən düzgün və zamanın sınaqlarından layiqincə çıxan modeldir. Xalqımız islamın gözəlliklərini, saflığını hər zaman qoruyub saxlayır, ona zidd ideyalar qatmır. Ölkəmizdəki dini maarifçilik və məzhəblərarası səmərəli əməkdaşlıq, etimad mühiti islam ölkələrinin həmrəyliyi üçün uğurlu nümunədir. Odur ki, Azərbaycanda islam dəyərlərinə bağlılığın, dinin saflığının qorunmasının ən mükəmməl nümunəsi mövcuddur. Azərbaycan hüquqi, dünyəvi dövlətdir. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlət-din münasibətləri sağlam təməllər üzərində formalaşaraq dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edir.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2017-ci ili Azərbycanda "İslam həmrəyliyi ili" elan etməsi ölkəmizin müsəlman aləminin birliyi üçün nümayiş etdirdiyi mühüm siyasi iradənin göstəricisi idi. "İslam həmrəyliyi ili"nin elan edilməsi ilə həm də müxtəlif xalqların, o cümlədən müsəlmanların müharibələrdən əzildiyi, fəlakətlərə düçar edildiyi indiki dövrdə dünyaya mesaj verildi. Bütün dünyaya göstərildi ki, müsəlman həmrəyliyi Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. 2017-ci il ərzində Azərbaycanda islam həmrəyliyinə həsr olunmuş çoxsaylı tədbirlər həyata keçirildi. Hər bir tədbir ölkəmizin bu sahədə təşəbbüslərinin bütün islam aləmi tərəfindən dəstəkləndiyini göstərdi. Beləliklə, qlobal miqyasda sülh və əməkdaşlığa, sivilizasiyalararası dialoqa böyük töhfə verən Azərbaycan bu sahədə yeni fəaliyyət mərhələsinə qədəm qoydu.

Bir neçə gün əvvəl ramazan ayı münasibətilə müsəlman dövlətlərinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar müsəlman ölkələri tərəfindən beynəlxalq təşkilatlarda Azərbaycana göstərilən dəstəyə görə təşəkkürünü bildirərək deyib: *"Azərbaycan da, öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Bildiyiniz kimi, biz islam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər islam həmrəyliyinin möhkəmlənməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, islam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır".*

Azərbaycanın mövcud potensialı və beynəlxalq ictimaiyyətin ona olan etimadı islam həmrəyliyinə nail olunması kimi mühüm missiyanı üzərinə götürməyə imkan verir. Ölkəmiz öz nüfuzundan və təcrübəsindən irəli gələrək müsəlman ölkələri arasında birləşdirici və barışdırıcı rol oynamağa qadirdir. Reallıq da göstərir ki, Azərbaycanın təşəbbüsləri dünyada islam həmrəyliyinin gücləndirilməsi sahəsində əməli addımların atılmasına, o cümlədən müsəlman ölkələri arasında əməkdaşlıq əlaqələrinin daha da güclənməsinə töhfəsini verir. Beləliklə, ölkəmiz bu missiyanı layiqincə həyata keçirir, islam dünyasında həmrəyliyin möhkəmləndirilməsində, sülhün və əmin-amanlığın təmin olunmasında böyük rol oynayır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Oqtay Əsədov Kiyevdə müalicə alan Milli Qəhrəmanımızla görüşüb





Milli Məclisin Sədri Oqtay Əsədov Ukraynanın paytaxtı Kiyev şəhərinə səfərə gedib. AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov əvvəlcə ümummilli lider Heydər Əliyev adına istirahət parkında ulu öndərin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüb. Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev Milli Məclisin Sədrinə park haqqında ətraflı məlumat verib.

Sonra parlament Sədri Oqtay Əsədov Kiyev şəhərində insult keçirən Milli Qəhrəman Zabit Quliyevin müalicə aldığı A.P.Romodanova adına Neyro-Cərrahiyyə İnstitutuna gəlib. Prezident İlham Əliyevin salamlarını çatdıran sədr qeyd edib ki, dövlətimizin başçısının birbaşa göstərişi ilə onun müalicəsi nəzarət altında saxlanılır. Dövlətimiz müalicə başa çatanadək yardımını əsirgəməyəcək.

Z.Quliyev ona göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib və milli qəhrəmanlarımızdan bəhs edən kitabı sədr Oqtay Əsədova təqdim edib.Oqtay Əsədovu Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev müşahidə ediblər.

# Ukraynanın altıncı Prezidenti Vladimir Zelenskinin andiçmə mərasimi keçirilib





Mayın 20-də Ukrayna Ali Radasında bu ölkənin altıncı Prezidenti Vladimir Zelenskinin andiçmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın yeni seçilmiş dövlət başçısının andiçmə mərasimində Azərbaycanı Milli Məclisin Sədri Oqtay Əsədov və ölkəmizin Ukraynadakı səfiri Azər Xudiyev təmsil ediblər.

Andiçmə mərasimində təxminən 60 ölkənin prezidentləri, hökumət başçıları və nazirləri iştirak ediblər.

Əvvəlcə Ukraynanın Dövlət himni səsləndirilib.

Sonra Vladimir Zelenski Ali Radanın təntənəli iclasında əlini İncilə basaraq Ukrayna xalqına sədaqət andı içib. Ona prezident vəzifəsinə başlaması haqda Şəhadətnamə və dövlət başçısının rəsmi rəmzləri təqdim edilib. Ukrayna Prezidenti andın mətnini imzalayıb və ölkənin Konstitusiya Məhkəməsinin sədrinə verib. Daha sonra Prezident Vladimir Zelenski mərasimdə çıxış edib. Prezident qeyd edib ki, Ukraynanın Avropaya inteqrasiya siyasəti davam etdiriləcək. "Hər kəs bilsin ki, prezidentlik dövründə xalqın rifahının yaxşılaşdırılması və dövlətin daha da güclənməsi üçün bütün enerjimi sərf edəcəyəm", - deyə Vladimir Zelenski vurğulayıb.

Andiçmə başa çatdıqdan sonra Mariinski Sarayında Ukraynanın Silahlı Qüvvələrinin iştirakı ilə dövlət bayrağının qaldırılması mərasimi və xarici ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüş keçirilib.

Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov Ukrayna Prezidenti Vladimir Zelenskiyə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ali dövləti vəzifəyə seçilməsi münasibətilə təbriklərini çatdırıb. V.Zelenski də öz növbəsində təbriklərə görə Azərbaycan dövlətinin başçısına səmimi təşəkkürünü bildirib.

Daha sonra Ukraynanın yeni seçilmiş Prezidenti adından təntənəli qəbul təşkil edilib.

# Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyi arasında birgə Fəaliyyət Planının təqdimatı olub



Mayın 20-də Yeni Azərbaycan Partiyası (YAP) ilə Mədəniyyət Nazirliyi arasında Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair birgə Fəaliyyət Planının təqdimatı olub. Sənəd 2019-2020-ci illəri əhatə edir.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının təkcə siyasi sahədə deyil, ölkəmizin mədəni həyatında da mühüm rol oynadığını bildirib. Yeni Azərbaycan Partiyasının fəaliyyəti çoxşaxəlidir. Partiyamızın təşkilatçılığı ilə müxtəlif mədəniyyət tədbirləri keçirilir. Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyi arasında birgə Fəaliyyət Planı da bu işdə mühüm rol oynayacaq. Prezident İlham Əliyev tərəfindən 2019-cu il "Nəsimi ili" elan edilib. Tədbirlər Planı çərçivəsində bununla bağlı da müxtəlif layihələr reallaşdırılacaq.

YAP ilə Mədəniyyət Nazirliyinin indiyə qədər də fəal əməkdaşlıq etdiyini bildirən mədəniyyət naziri Əbülfəs Qarayev bu birgə fəaliyyətin insanların mədəni rifahına xidmət edəcəyini bildirib. Ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışan Ə.Qarayev qeyd edib ki, ümummilli lider hər zaman fəaliyyətində xalqına arxalanır və güvənirdi. Nazir deyib ki, hər zaman Azərbaycan mədəniyyətinə, incəsənətinə xüsusi diqqət və qayğı ilə yanaşan ulu öndər onun inkişafı, təbliği istiqamətində mühüm addımlar atıb.

Ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müasir müstəqil Azərbaycanın bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurlara imza atdığını vurğulayan Əbülfəs Qarayev təqdim olunan Tədbirlər Planının əhəmiyyətindən bəhs edib, bu sənəd çərçivəsində bir sıra mühüm tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu deyib.

Sonra Mədəniyyət Nazirliyində YAP ərazi ilk partiya təşkilatının sədri Vüqar Məmmədov birgə Fəaliyyət Planına dair təqdimatla çıxış edib.

# Ordumuzun genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb











Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi təlimin əsas mövzusudur.

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub. Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək. Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

Genişmiqyaslı əməliyyat-taktiki təlimləri mayın 24-dək davam edəcək.

***AZƏRTAC***

# Azərbaycan tarix elminə Prezident qayğısı

## Tarix İnstitutu son 15 ildə

**Prezident İlham Əliyev "Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 26 aprel 2012-ci il tarixli sərəncamında Milli Elmlər Akademiyası Tarix İnstitutunun fəaliyyətini yüksək qiymətləndirərək bu elmi-tədqiqat müəssisəsini "ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi" adlandırmışdır.**



İnstitutun yaradıcı heyəti son 15 il ərzində birbaşa Prezident İlham Əliyevin tariximizin taleyüklü problemləri ilə bağlı irəli sürdüyü təşəbbüslər, çağırışlar və dövlət başçısının konkret tapşırıqları əsasında fəaliyyət göstərmişdir.

Ölkə başçısı öz çıxışlarında, akademiyadakı görüşlərində, institut rəhbərliyinə verdiyi konkret tapşırıqlarda Tarix İnstitutu qarşısında başlıca olaraq aşağıdakı istiqamətlərdə tədqiqatlar aparılması vəzifəsini qoymuşdur:

*- Tariximizin bütün dövrlərinin Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında tədqiq olunaraq xalqımıza olduğu kimi çatdırılması;*

*- Azərbaycan tarix elminin ayrı-ayrı dövrlərdə məqsədyönlü surətdə həyata keçirilmiş saxtalaşdırmalardan və təhriflərdən təmizlənməsi;*

*- İlk növbədə Azərbaycanın qədim dövlətçilik tarixini əks etdirən "Azərbaycan Tarixi Atlası"nın yaradılması;*

*- Xarici ölkələrdə saxlanılan ilk mənbələrin, o cümlədən arxiv sənədlərinin ölkəyə gətirilməsi və bununla Azərbaycan tarix elminin ilk mənbə bazasının genişləndirilməsi;*

*- Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımları və deportasiyalar tarixini Heydər Əliyevin müəyyən etdiyi konsepsiya istiqamətləri əsasında daha dərindən araşdıraraq 26 Bakı komissarının fəaliyyətinə düzgün elmi qiymət verilməsi və ölkəmizin müxtəlif bölgələrində həyata keçirilmiş soyqırımları barədə ayrı-ayrılıqda elmi-tədqiqat əsərlərinin yazılması və nəşr olunması;*

*- Erməni saxtakarlarının "Arsax"la (erməni saxtakarları sak türkləri ilə bağlı "Ərsak" terminini təhrif edərək və özününküləşdirərək "Arsax" kimi təqdim edirlər) bağlı cızmaqaralarını ifşa edən mükəmməl Qarabağ tarixinin yazılması və nəşr olunması;*

*- Ermənilərin Naxçıvanla və bu bölgəmizin tarixi abidələri ilə bağlı heç bir elmi əsası olmayan uydurmalarına qarşı ən qədim zamanlardan günümüzədək bütün dövrləri əhatə edən Naxçıvan tarixinin yazılması;*

*- Azərbaycanın itirilmiş torpaqlarının, o cümlədən İrəvan xanlığının tarixinin yazılması və milli tarixşünaslığımıza daxil edilməsi;*

*- Tarixi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Zəngəzurun mükəmməl tarixinin yaradılması;*

*- Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair tədqiqatların genişləndirilməsi və ulu öndərin vəsiyyətinə uyğun olaraq Xalq Cümhuriyyətinin tarixini əks etdirən ensiklopedik nəşrin hazırlanması.*

Ölkə başçısının tarix elmimizin inkişafı ilə bağlı yuxarıda göstərilən müdrik göstərişlərinin yerinə yetirilməsi mahiyyətcə xalqımızın hər cür saxtalaşdırmalardan və təhriflərdən təmizlənmiş gerçək tarixinə sahib çıxmasının təmin olunması demək idi. Tarix İnstitutu totalitar sovet rejiminin doğurduğu bütün meyillərdən uzaqlaşaraq ölkənin mühüm azərbaycançılıq mərkəzinə çevrilməli idi. Əlbəttə, bu, asan məsələ deyildi. Qarşıya qoyulmuş son dərəcə şərəfli və bir o qədər də çətin vəzifələrin öhdəsindən gəlmək üçün bir tərəfdən tariximizin bütün dövrləri və taleyüklü problemləri barədə bundan əvvəl yazılanlar saxtalaşdırmalardan təmizlənməli, digər tərəfdən isə müstəqil təfəkkürlə vətənin hər bir dövrünün, hər bir elmi probleminin yeni tarixi yazılmalı idi. Bu ağır problemlərin həlli zamanı, təbiidir ki, həm daxildə, həm də xaricdə saxta konsepsiyalar əsasında tarix yazanların və onların tərəfdarlarının müqaviməti ilə qarşılaşacağımız labüd idi...

Çətinliklərlə və maneələrlə dolu olan yeni yolu seçmək və bu yoldan keçmək, əlbəttə, asan olmur. Tarix İnstitutu Prezident İlham Əliyevin qətiyyətinə arxalanaraq tariximizi xalqa olduğu kimi çatdırmaq yolunu tutdu. İnstitutun elmi-tədqiqat planları tamamilə dəyişdirildi. Ölkə başçısını narahat edən bütün məsələlər elmi-tədqiqat planlarına daxil edildi. Müstəqillik təfəkkürü əsasında yeni mövzu toplusu yaradıldı. Fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyalarının mövzuları yeniləşdirildi. Əsaslı struktur islahatları keçirildi.

Bir sözlə, institutun tarixində yeni dövr başlandı: *ulu öndər Heydər Əliyevin ideyaları və Prezident İlham Əliyevin konkret göstərişləri əsasında Tarix İnstitutunun ölkənin mühüm azərbaycançılıq mərkəzinə çevrilməsi dövrü.*

### İlk uğur

Öz fəaliyyətində vacib dövlət tapşırıqlarını əsas tutan institut az vaxt içərisində mühüm uğurlar qazandı. İnstitut ilk uğurlarından birinə Ensiklopediyanın xüsusi "Azərbaycan" cildi hazırlanarkən imza atdı. 2004-cü ilin aprelində tələm-tələsik təqdimat mərasimi keçirilərkən dövlət başçısı bu cildi kəskin tənqid etmişdi.

Prezident Administrasiyasında dövlət başçısının rəhbərliyi ilə keçirilən müşavirədə bu sətirlərin müəllifi də söz alaraq tənqidi çıxış etmişdi. Bu müzakirədən sonra hazırlanan yeni variantda da tariximiz lazımınca əks etdirilməmişdi. Azərbaycanın ən qədim zamanlarından günümüzə qədər davam edən tarixinə cəmi **30** səhifəlik səthi material ayrılmışdı. İnstitutun təkidi ilə xüsusi "Azərbaycan" cildinə tariximizlə bağlı nəzərdə tutulmuş 30 səhifə əvəzinə **220** səhifəlik mükəmməl Azərbaycan tarixi oçerki əlavə olundu. İlk dəfə məhz həmin cildə **40**-a qədər tarix xəritəsi daxil edildi. Xüsusi cild saxtalaşdırmalardan və təhriflərdən təmizləndi. Bu, Tarix İnstitutunun vətənimizin tarixi keçmişini müstəqillik dövrünün azad təfəkkürü ilə yenidən yazmaq yolunda atdığı ilk addım idi, daha doğrusu, ilk uğurumuz idi.

### İlk "Azərbaycan Tarixi Atlası"

İnstitut Prezidentin tapşırığına əsasən növbəti mühüm uğuruna 2007-ci ildə imza atdı. Azərbaycanın dövlətçilik tarixinin bütün dövrlərini əhatə edən **55** xəritədən ibarət olan "Azərbaycan Tarixi Atlası"nı nəşr etdi. Bu, olduqca mühüm elmi nailiyyət idi. Çünki ermənilər sovet dövründə tarixi Azərbaycan torpaqlarını əhatə edən qondarma "Ermənistan dövləti"nin tarixinə dair dəfələrlə atlaslar buraxdıqları halda Azərbaycan tarixi atlasının nəşr olunmasına imkan verməmişdilər. Bu istiqamətdə edilən bütün cəhdlər nəticəsiz qalmışdı. Yeri gəlmişkən, ötən əsrin 60-cı illərində ilk Azərbaycan Ensiklopediyasının nəşrinə başlanılarkən Baş redaktor Rəsul Rzanın təşəbbüsü ilə bununla bağlı ilk addım atılmışdı. O zaman Ensiklopediyanın Azərbaycan tarixi redaksiyasının müdiri, sonralar isə elmi işlər üzrə baş redaktor müavini olan bu sətirlərin müəllifi Rəsul Rzanın yaxından köməyi ilə Kiyev Xəritə Fabrikində (bu müəssisə SSRİ-də ermənilərin təsiri altında olmayan yeganə xəritə fabriki idi) Azərbaycan tarixi xəritələrinin nəşrinə nail olmuşdu. Lakin Moskvadan və İrəvandan olan bədxahlarımız, habelə onların əlaltıları olan daxildəki dönüklərdən ibarət antiazərbaycan qüvvələri bu xəritələrin müstəqil "Azərbaycan Tarixi Atlası" halında nəşr olunmasına imkan verməmişdilər.

Bu baxımdan *Prezident İlham Əliyevin yüksək dövlətçilik qayğısı sayəsində 2007-ci ildə ilk "Azərbaycan Tarixi Atlası"nın işıq üzü görməsi tarixi nailiyyət idi.* Məhz bu elmi uğur nəticəsində 2014-cü ildə dövlət başçımızın xeyir-duası ilə işıq üzü görən *"Azərbaycanın Milli Atlası"*nın nəşri üçün çox gərəkli bir zəmin yaradılmış oldu. Milli atlasın ilk səhifələrinə Azərbaycan tarixinə dair **70** xəritə daxil edildi. Beləliklə, ölkəmizin qədim dövlətçilik tarixinin bütün mərhələləri xəritələrdə öz əksini tapdı. Ermənilərin saxta xəritələri Azərbaycan tarixşünaslığında Cənubi Qafqaz tarixinin elmi dövriyyəsindən çıxarıldı.

### "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi və onun icrası

Tarix İnstitutu Prezidentin qarşıya qoyduğu tarixi vəzifələri icra etmək üçün *"Azərbaycan tarixi ilk mənbələrdə"* layihəsini hazırladı və onun icrasına başladı. Moskva, Sankt-Peterburq, İstanbul, Ankara, Berlin, Paris, London, Dehli, Tiflis, Mahaçqala, Həştərxan və dünyanın digər elmi mərkəzlərindən Tarix İnstitutuna minlərlə arxiv sənədi gətirildi. Bu sənədlərin xeyli hissəsi artıq onlarla sənəd toplusu halında nəşr olunmuşdur. Həmin sənədlər və sənəd topluları içərisində tariximizin taleyüklü problemlərini əhatə edən *xanlıqlar dövrü* və ölkəmizin çar Rusiyası ilə Qacarlar İranı arasında bölüşdürülməsi ilə bağlı sənədlər xüsusi yer tutur. İnstitut bu sənədlərin Azərbaycana gətirilməsini daim diqqət mərkəzində saxlamışdır.

> **Tarix İnstitutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzidir.**
>
> ***İlham ƏLİYEV***

Bunun nəticəsidir ki, artıq xanlıqlar dövrünə, Azərbaycan torpaqlarının bölüşdürülməsi və qanlı Qafqaz müharibələrinə aid *"Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri. II cild"; "Azərbaycan tarixi arxiv sənədlərində. XVIII əsr. Rusiya Federasiyası Dağıstan Respublikası Mərkəzi Dövlət Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVI-XX əsrlər). I cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin və Dağıstan Mərkəzi Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVI-XX əsrlər). II cild. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin və Dağıstan Respublikası Elmlər Akademiyasının Əlyazmalar fondunun sənədləri"; "Россия и Азербайджанские ханства во второй половине XVIII - нач. XIX веков. Сборник документов), Т. 1 (1751-1775 гг.)"; "Русскоязычные источники по истории Азербайджана первой половины XVIII века Т. II (1726-1750 гг.)"; "Русскоязычные источники по истории Азербайджана первой половины XVIII века Т. III (Приложения)"; "Азербайджан в документах государственного архива Астраханской области (Сборник документов), Т.2 (1734-1744 гг.)"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrlər). I cild. Rusiya Dövlət Tarix Arxivinin sənədləri"; "Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). II cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri"* adlı onlarla sənəd toplusu və bu toplulara daxil edilmiş yüzlərlə sənəd əlimizdədir.

### Son iki yüz ilin tarixi yenidən yazılır

Ölkəmizə gətirilmiş yuxarıda göstərilən nadir sənədlər əsasında ulu öndərin *"Son iki yüz ilin tarixi yenidən yazılmalıdır"* göstərişi əsas götürülərək geniş tədqiqat işlərinə başlandı. Təkcə tariximizin *xanlıqlar dövrünə* aid **50**-yə yaxın monoqrafiya və müxtəlif xarakterli toplular nəşr olundu. Dövlət mükafatı laureatı, əməkdar elm xadimi T.T.Mustafazadənin qiymətli monoqrafiyaları və nəşr etdirdiyi sənəd topluları Azərbaycan xanlıqlarının tarixinə yeni elmi baxışın təşəkkülündə mühüm rol oynadı. İnstitutda aparılan tədqiqat işləri Azərbaycanın həm Şimal, həm də Cənub xanlıqlarının tarixini əhatə etdi. Xanlıqlar tarixinə fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyaları həsr olundu.

İnstitut *xanlıqlar dövrünün* tarixinin araşdırılmasında da ən mühüm addımı Prezident İlham Əliyevin təşəbbüsü ilə atdı. Birbaşa Prezidentin qayğısı sayəsində *"Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi"* kimi fundamental tədqiqatlar işıq üzü gördü. Ermənilərin Cənubi Qafqazın aborigen etnosu olmadığı və Azərbaycana çar Rusiyası tərəfindən XIX əsrdə köçürülüb gətirildiyi sübuta yetirildi. Bununla *sak* türklərinin tarixi ilə bağlı *Ərsak* yer adını saxtalaşdıran erməni cızmaqaraları, qədim oğuz yurdu Naxçıvanla bağlı uydurmalar ifşa olundu. "İrəvan xanlığı" dünya dillərinə tərcümə olunub yayıldı.

Bütün bunlar dövlət başçısının qətiyyəti sayəsində tarix elminin qazandığı böyük uğurlardır. Dövlət başçısı bu mühüm elmi nailiyyətə görə özünün 25 may 2012-ci il tarixli sərəncamı ilə Tarix İnstitutunun 13 nəfər əməkdaşını (Y.M.Mahmudov, T.T.Mustafazadə, K.K.Şükürov, S.A.Məmmədov, G.C.Nəcəfli, G.N.Məmmədova, H.N.Həsənov, İ.S.Məmmədov, V.V.Umudlu, İ.M.Məmmədova, S.M.Hacıyeva, N.R.Gözəlova) Dövlət mükafatına layiq gördü.

### "Dünyanı bəzəyən Abbasın tarixi"

2010-2014-cü illərdə institutun tarixində ilk dəfə olaraq XVI-XVII əsrin əvvəllərində yaşamış böyük Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin *"Dünyanı bəzəyən Abbasın tarixi"* adlı irihəcmli (**159** ç.v.) əsəri farscadan tərcümə olunaraq öz dilimizdə oxuculara təqdim olundu. Bu qiymətli ilk mənbənin tərcümə olunması barədə qərar hələ **1996-cı** ildə qəbul olunsa da, iş görülməyərək qalırdı. Odur ki, iki kitabdan ibarət olan **2544** səhifəlik ilk mənbənin dilimizə çevrilməsi ölkə başçısının qayğısı sayəsində qazanılmış böyük elmi uğurdur. Yeri gəlmişkən, bu qiymətli ilk mənbəni çevirən professor Şahin Fərzəliyev XVI əsrdə yaşamış digər böyük tarixçimiz Həsən bəy Rumlunun *"Tarixlərin ən yaxşısı"* əsərinin də farscadan dilimizə çevrilməsini başa çatdırmışdır və həmin mənbə indi çapa hazırlanır. Bu gün Tarix İnstitutunda *"Azərbaycan tarixi ilk mənbələrdə"* layihəsi uğurla davam etdirilməkdədir. Bununla belə, tarixçilərimiz artıq ölkəmizə gətirilmiş ilk mənbələr, o cümlədən arxiv sənədləri əsasında tariximizin bütün dövrlərinin təhriflərdən və saxtalaşdırmalardan təmizlənmiş gerçək mənzərəsini yarada bilərlər.

### Soyqırımlarının tarixi: institutun qarşısına qoyulan ən mühüm vəzifələrdən biri

Azərbaycan xalqına qarşı soyqırımları tarixinin dərindən və hərtərəfli araşdırılması, 26 Bakı komissarı adlanan daşnak-bolşevik güruhunun antiazərbaycan fəaliyyətinə düzgün elmi qiymət verilməsi dövlət başçısının Tarix İnstitutu qarşısında qoyduğu ən mühüm vəzifələrdən biri idi.

Ulu öndər Heydər Əliyev özünün 18 dekabr 1997-ci il tarixli *"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"* və 26 mart 1998-ci il tarixli *"Azərbaycanlıların soyqırımı haqqında"* sərəncamları ilə bu istiqamətdə aparılacaq tarixi tədqiqatların konseptual əsasını müəyyən etmişdir. Dahi şəxsiyyət imzaladığı bu mühüm dövlət sənədləri ilə əslində Azərbaycan tarix elmini yeni yola - müstəqillik yoluna çıxarmışdır.

Prezident İlham Əliyev ulu öndərin Azərbaycan tarixi ilə bağlı müəyyən etdiyi konseptual elmi istiqaməti yaradıcılıqla daha da zənginləşdirdi və qətiyyətlə davam etdirdi. Bu baxımdan dövlət başçısının 26 Bakı komissarına, daha doğrusu, soyqırımı cəlladlarına məxsus məzarlığın şəhərin mərkəzindən - Sahil bağından ümumşəhər qəbiristanlığına köçürülməsi barədə göstərişi müstəqillik dövrü tariximizin çox mühüm hadisəsi kimi heç zaman yaddaşlardan silinməyəcəkdir. Prezident bu müdrik və cəsarətli addımı ilə hər şeydən əvvəl xalqımızı onun qanını tökən cəlladların "abidəsi" qarşısında səcdə etmək həqarətindən xilas etdi. Digər tərəfdən, cəsədlərin köçürülməsi prosesində məzarlıqda **26** deyil, **23** cəsədin qalığı olduğu aşkar edildi. Bu fakt sovet dövründə yazılmış tarix əsərlərinin nə qədər iyrənc saxtakarlıqlarla və təhriflərlə dolu olduğunu bariz şəkildə sübut etdi. Bu baxımdan soyqırımı cəlladlarının cəsədlərinin qalıqlarının ümumi qəbiristanlığa köçürülməsi Prezident İlham Əliyevin öz xalqı qarşısında, Azərbaycan tarix elmi qarşısında misilsiz tarixi xidmətidir.

Məlum məzarlıqda **26** deyil, **23** cəsədin qalıqlarının aşkar edilməsi Tarix İnstitutunda elmi şuranın müzakirəsinə çıxarıldı. Tədqiqatlar genişləndirildi. Dünyanın müxtəlif ölkələrindən yeni sənədlər gətirildi. Daşnak cəlladı Stepan Şaumyanın 26-larla bir sırada güllələnmədiyi, onun 26-ların güllələnməsindən sonra 10 gün ərzində Krasnovodsk həbsxanasında Anastas Mikoyanla birlikdə eyni kamerada yaşadığı, bundan sonra hər iki məhbusun müəmmalı şəraitdə "yoxa çıxdığı" sübut olundu. Azərbaycan tarix elmi sübuta yetirdi ki, Stepan Şaumyan bolşevik şineli geyinməsinə baxmayaraq, "Daşnaksütyun" partiyasının rəhbərlərindən biri, həmin partiyanın Bakı komitəsinin üzvü olmuşdur.

Tarix İnstitutu xalqımıza qarşı soyqırımları tarixini sistemli şəkildə araşdırmaq üçün ayrıca Soyqırımları tarixi elmi tədqiqat şöbəsi və xüsusi tədqiqat qrupu (Natiq Məmmədzadə, Güntəkin Nəcəfli, İlqar Niftəliyev, Kamran İsmayılov, Vaqif Abışov, Nigar Maksvell, Rəşad Rüstəmov) yaratdı. Respublika Prokurorluğu işə cəlb olundu. Nəticədə *"Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı". I cild; "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı". II cild, 1-ci kitab. Gəncə quberniyası; "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı". II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı; "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. III cild. Xatirələr"* kimi qiymətli sənəd topluları və ölkəmizin bütün bölgələrində həyata keçirilmiş soyqırımları tarixini əhatə edən aşağıdakı tədqiqat əsərləri nəşr olundu: *"Исторические факты о деяниях армян на азербайджанской земле"; "Historical facts of Armenians actions in Azerbaijan land"; "Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи"; Abışov V.V. "Azərbaycanlıların soyqırımı (1917-1920-ci illər)"; "Vandalizm. Tarixi adlara qarşı soyqırımı"; Qafarov V. "A törtênelem vêres, elfelejthetetlen pillanatai "Qenecîdium"; "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları"; Nəcəfli G.C. "1917-1918-ci illərdə Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı" "(ATASE-nin sənədləri əsasında)"; Nifteliev İ.V. "Геноцид азербайджанцев в Ираванской губернии (1918-1920)"; Nəcəfli G.C. "1918-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı"; Gözəlova N.R. "Azərbaycan türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində"; Mustafa N. "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920)"; Abışov V.V. "Bakıda 1918-ci il mart soyqırımı"; yenə onun "Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı"; və "Quba qəzasında türk-müsəlman soyqırımı"; Məmmədzadə N. "Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920)"; İsmayılov K.N. "Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı. (1918-1920)"; Əlibəyli H.C. "Birinci Dünya müharibəsi illərində Urmiyada türk-müsəlman əhalinin soyqırımı"; Mahmudov Y.M. "Геноцид турко-мусулманского населения Азербайджана в 1918-1920 годах"; yenə onun "Genocide of turkic-muslim population of Azerbaijan in 1918-1920"* və s.

İnstitut xalqımıza qarşı soyqırımları ilə bağlı toplanmış faktiki material əsasında xarici ölkələrin görkəmli alimlərinin iştirakı ilə Bakıda, Şamaxıda, Gəncədə, Qubada, Lənkəranda, Qusarda **6** beynəlxalq soyqırımı konfransı keçirdi. *Qusarda keçirilən Beynəlxalq soyqırımı konfransında dünya alimləri A.A.Bakıxanov adına Tarix İnstitutunun Deportasiyalar və Soyqırımları Problemi üzrə Dünya Tarixçilərinin Əlaqələndirmə Mərkəzinin təsdiq olunması barədə qərar qəbul etdilər. Bütün bu soyqırımı konfranslarına ölkəmizin başçısı müraciətlər ünvanladı, Prezident Administrasiyasının məsul əməkdaşları bu müraciətləri səsləndirdi.*

Yeri gəlmişkən, xalqımıza qarşı soyqırımları tarixinə dair yeni-yeni faktlar aşkar olunduqca Tarix İnstitutunu *"tarixi siyasiləşdirməkdə"* qınayanlar da tapıldı. Belələrinin cavabını yenə Prezidentimiz verdi: soyqırımları tarixinin dövlət səviyyəsində araşdırılması qərara alındı. Akademiyanın prezidenti akademik A.A.Əlizadə soyqırımlarını araşdıran komissiyanın sədri, vitse-prezident akademik İsa Həbibbəyli isə onun müavini təsdiq olundu.

Tarix İnstitutu xalqımıza qarşı həyata keçirilmiş soyqırımları tarixini araşdırmaqda davam edir. Bu yolu ulu öndər başlamışdır. Bu yolu böyük cəsarət və müdrikliklə Prezident İlham Əliyev davam etdirir. Tarixçilər isə onlara verilmiş dövlət tapşırığını yerinə yetirərək və qarşılarına çıxan bütün maneələri dəf edərək bu yolla irəliləməyi özlərinə şərəf borcu hesab edirlər.

*(Ardı var)*

**Yaqub MAHMUDOV,**
***AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı***

## UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçiriləcək sessiyasına hazırlıq müzakirə olundu

UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası 2019-cu ilin 30 iyun - 10 iyul tarixlərində Bakı şəhərində keçiriləcək. Bununla əlaqədar Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə Təşkilat komitəsi yaradılıb. Təşkilat komitəsinin sədri Azərbaycan Respublikasının Mədəniyyət naziridir. Komitəyə nazirliklərin, dövlət komitələrinin, digər aidiyyəti qurumların rəhbər və məsul şəxsləri daxildir.

Mayın 20-də Beynəlxalq Muğam Mərkəzində mədəniyyət naziri, Təşkilat komitəsinin sədri Əbülfəs Qarayevin iştirakı ilə sessiyaya hazırlıqla əlaqədar növbəti iclas keçirildi.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, toplantıda aidiyyəti nazirliklərin, dövlət komitələrinin, digər qurumların rəhbər və məsul şəxsləri iştirak edib.

Əbülfəs Qarayev çıxış edərək Dünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıqla əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib. Qeyd edib ki, ölkəmizin son illərdə sürətli inkişaf yoluna qədəm qoyması dünya birliyində yüksək qiymətləndirilir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirməsi müstəqil dövlətimizin nüfuzundan xəbər verir.

Nazir Azərbaycan-UNESCO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Bildirib ki, Dünya İrs Komitəsinin 42-ci sessiyasında Azərbaycan bir il müddətinə komitənin sədri seçilib. Ölkəmiz üçün böyük əhəmiyyətə malik belə bir qərarın qəbul edilməsi UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisidir.

Təşkilat komitəsinin sədri vurğulayıb ki, UNESCO-nun bu əhəmiyyətli tədbirinin Bakıda keçirilməsi olduqca məsuliyyətli bir işdir. Komitənin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərdən hesab olunur: "Bütün dünyanı əhatə edən İrs Komitəsi üzvlərinin ölkəmizə səfəri mədəniyyət, turizm və ümumiyyətlə, Təşkilat komitəsində təmsil olunan qurumların qarşısında böyük vəzifələr qoyur. Bakıya gələcək 3000 nəfərdən çox qonaq şəhərimizi gəzəcək, muzeyləri, qoruqları, restoranları və tarixi abidələri ziyarət edəcək. Bu ziyarətçilər dünyada ictimai fikri formalaşdıran insanlardır və onların bizim vətənimiz, şəhərimiz, tarixi abidələrimiz, mədəni sərvətlərimiz haqqında düşüncələri və yazdıqları olduqca vacib əhəmiyyət kəsb edir. Bu elm adamlarının məqalələri dünya miqyasında mütəxəssislər tərəfindən oxunur və müzakirə edilir. Bu səbəbdən də bütün teatr və konsert müəssisələri, muzeylərimiz, qoruq və tarixi məkanlarımız öz işini dünya tələblərinə uyğun quraraq bu günlərdə daha məsuliyyətlə fəaliyyət göstərməlidirlər. Sessiyanın keçirildiyi günlərdə Bakıda tədbirin ruhuna uyğun konsert və tamaşalar təqdim olunmalı, ölkəmizin qüdrəti, tarixi-mədəni irsimiz təcəssüm etdirilməlidir".

Qeyd olunub ki, hotellər qonaqları qarşılamağa tam hazır olmalıdır. İçərişəhər və Qobustan qoruqları xüsusi iş rejimində çalışmalı, hər bir muzey və qoruq ingilis, rus və fransız dilini bilən bələdçilərlə təmin edilməlidir. Həmçinin paytaxtın böyük ticarət obyektləri də işini uyğun şəkildə qurmalıdır. Bundan əlavə, şəhərdə abadlıq işlərinin həyata keçirildiyi tarixi binaların üzərində göstəricilərin vurulması təmin edilməlidir.

Vurğulanıb ki, sessiyanın açılış mərasimi Qoşa Qala qapısında açıq havada reallaşacaq. Əsas iclaslar isə Bakı Konqres Mərkəzində keçiriləcək və tədbir UNESCO və BMT-nin saytı vasitəsilə birbaşa yayımlanacaq: "Sessiya çərçivəsində "Gənc peşəkarların forumu" və "Abidə menecerlərinin forumu" da təşkil olunacaq. Buna görə də paytaxtla yanaşı, regionlarda da bu sessiyaya hazırlıq işləri yekunlaşdırılmalıdır".

Əbülfəs Qarayev sessiya günlərində xüsusi tamaşa və etnoqrafik filmlərin nümayişi ilə yanaşı, ölkəmizin təbliği məqsədilə nəşrlərin hazırlanması barədə də tapşırıqlarını verib.

Sonra iclas qarşıda duran vəzifələrin müzakirəsi ilə davam edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan yeni dünya rekorduna imza atıb

## Bu, Dünya İqtisadi Forumunun inklüziv inkişaf naminə iqtisadi resurslardan səmərəli istifadə üzrə 2018-ci ilin hesabatında təsdiqlənib

*Əvvəli 1-ci səh.*




Bunu beynəlxalq reytinq və maliyyə qurumları da dönə-dönə qeyd edirlər.

AR İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Doing Business-2020" islahatlarına dair növbəti icmalında ölkəmizdə aparılan islahatlar 11 indikator üzrə qiymətləndirilmişdir. Qeyd olunur ki, sözügedən dövrdə ölkədə biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etmiş, onlayn vahid ixrac ərizəsi, yaşıl dəhliz, elektron məhkəmə, tikintidə "Bir pəncərə", biznesə başlamaq, elektrikə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası, əmlakın qeydiyyatı sahələrində ən vacib islahatlar həyata keçirilmişdir.

Dünya Bankı tərəfindən hazırlanan "Doing Business-2019" hesabatında Azərbaycan 190 ölkə arasında 32 pillə irəliləyərək 57-ci pillədən 25-ci, o cümlədən biznesə başlamaq üzrə 18-ci pillədən 9-cu, tikinti üçün icazələrin alınması üzrə 161-ci pillədən 61-ci, elektrik təchizatı şəbəkələrinə qoşulmaya görə 102-ci pillədən 74-cü, əmlakın qeydiyyatı üzrə 21-ci pillədən 17-ci, kreditlərin alınmasına görə 122-ci pillədən 22-ci, kiçik investorların maraqlarının qorunmasına görə 10-cu pillədən 2-ci, vergilərin ödənilməsi üzrə 35-ci pillədən 28-ci, müflisləşmənin həllinə görə 47-ci pillədən 45-ci yerə yüksəlmişdir.

Ümumiyyətlə, biz artıq dünyanın nüfuzlu reytinq agentliklərinin ölkəmizin müxtəlif sahələrdə apardığı islahatlara yüksək dəyər vermələrinə alışmışıq. Bu barədə il boyu dünyanın sorğu agentlikləri müxtəlif məruzə və hesabatlarında geniş məlumatlar yayırlar. Ötən bir il ərzində dövlət başçısının gördüyü işlərə ABŞ-ın İrs Fondu da yüksək qiymət vermişdir. Vaşinqtonda fəaliyyət göstərən bu nüfuzlu təşkilat (Heritage Foundation) cari ildə yayımladığı illik Dünya İqtisadi Azadlıq İndeksi hesabatında Azərbaycanın yüksək göstəriciyə malik olduğunu bildirmişdir.

Məlumat üçün bildirək ki, "The Heritage Foundation" Birləşmiş Ştatlarda 1973-cü ildə təsis edilən Strateji Araşdırmalar İnstitutudur, ABŞ-da ciddi nüfuza malik olan bu təşkilatın fəaliyyətinə 100 minlərlə fiziki şəxs, həmçinin müxtəlif fond və korporasiyalar dəstək verir. Məhz belə nüfuzlu təşkilatın ölkəmizdə 2018-ci ildə aparılan islahatlara yüksək qiymət verməsi həm də Azərbaycan Prezidentinin islahatlarının təqdir olunmasını təsdiqləyir.

Builki təqdimat mərasimində çıxış edən fondun rəhbərliyi Azərbaycanın xüsusən mülkiyyət hüquqları, idarəetmənin şəffaflığı və ədliyyə sisteminin inkişafı sahələrində böyük irəliləyişlərə nail olduğunu məxsusi vurğulamış, ölkəmizin 2018-ci ildə iqtisadi azadlıq və islahatlar sahəsində sürətlə irəlilədiyini təsdiq etmişdir. Ölkəmizin sürətlə iqtisadi islahatlara getdiyini qeyd edən fond Azərbaycanın iqtisadi azadlıqlar sahəsində İtaliya və Fransa kimi Avropa ölkələrini geridə qoyduğunu bildirmişdir. Müharibə şəraitində yaşayan ölkənin bu cür yüksək iqtisadi islahatlar həyata keçirməsi, sözün əsl mənasında, bütün dünya iqtisadiyyatı üçün maraqlı və unikal hadisədir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, dövlətin ali məqsədi təkcə iqtisadi göstəricilərin artımına nail olmaq deyil, həm də insanların rifahının yüksəldilməsi və onların sosial müdafiəsinin təmin edilməsidir. Son dövrlər həyata keçirilən sistemli islahatlar və paralel olaraq minimum əməkhaqqının, təqaüd və müavinətlərin, eləcə də tələbə təqaüdlərinin artırılması dövlət başçısının dediklərini təsdiq edən ciddi sosialyönümlü islahatlardır və bunlar Azərbaycanda davamlı inkişaf edən inklüziv cəmiyyətin təkamülünü təsdiq edir.

Davos Dünya İqtisadi Forumunun yaradıcısı və prezidenti, professor Klaus Martin Şvabın 2018-ci ildə dərc edilmiş hesabatı da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Alimin məruzəsində ABŞ, Almaniya və Danimarkanın iqtisadi göstəricilərinin müqayisə edilən digər ölkələrdəkindən əhəmiyyətli dərəcədə yüksək olması qeyd edilsə də, sosial siyasət baxımından Azərbaycanın onlardan üstün mövqeyə malik olması diqqətə çatdırılır. Həmin hesabatda diqqətçəkən məqam odur ki, yüksək inkişaf etmiş bu ölkələr sosial siyasət və gəlirlərin əhali arasında ədalətli bölgüsünü xarakterizə edən Cini indeksinə görə Azərbaycandan geridədir. Professor Klaus Martin Şvab bununla Azərbaycanın müqayisə edilən ölkələr sırasında ən səmərəli sosial siyasət yeritdiyini təsdiqləmiş olur.

Professorun təhlillərində Azərbaycanın adları çəkilən ölkələrlə müqayisədə sosial sahənin planlaşdırılması və idarə edilməsinə yönəlik daha səmərəli siyasət gerçəkləşdirməsi də təsdiqlənir. Azərbaycanın rəqabətqabiliyyəti indeksi "Böyük iyirmilik" (G 20) və VRİCS üzvü olan Braziliya və Cənubi Afrika Respublikası kimi ölkələrin göstəriciləri ilə eyni olsa da, Cini indekslərinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycanda sosial siyasət və əhali arasında gəlirlərin bölgüsü xarakteri ABŞ, Yaponiya, Fransa, İtaliya, Kanada və dünyanın digər lider dövlətləri və "böyük yeddilik" (G 7) ölkələrindəkindən daha səmərəlidir.

Bu isə o deməkdir ki, Dünya İqtisadi Forumunun 2018-ci il üçün hesabatına əsasən, inklüziv inkişaf naminə iqtisadi resurslardan səmərəli istifadə üzrə dünya rekorduna Azərbaycan imza atıb. Azərbaycanın inklüziv inkişaf səviyyəsinə görə reytinqi ölkənin iqtisadi imkanlarından 23 pillə üstündür. Bu özəllik belə bir faktı şərtləndirib ki, inklüziv inkişaf məqsədilə iqtisadi və insan resurslarının optimal idarə edilməsi üzrə Azərbaycanın təcrübəsi Dünya İqtisadi Forumunun hesabatında geniş təhlil edilmişdir. Professor Klaus Şvab bu sənəddə ölkələrin rəqabət qabiliyyətləri ilə onların davamlı inklüziv inkişaf cəmiyyətinin formalaşdırılması sahəsində nailiyyətləri arasında asılılığı nəzərdən keçirərək belə qənaətə gəlmişdir ki, müqayisə olunan ölkələr arasında yalnız Azərbaycanda sosial inkişaf göstəriciləri və əhali arasında gəlirlərin bölünməsi xarakteri iqtisadi göstəricilər səviyyəsindən əhəmiyyətli dərəcədə üstündür.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə işlənmiş geniş islahatlar sisteminin dünyanın məşhur reytinq agentliklərinin sorğu və hesabatlarında yer alması, xüsusi təhlil predmetinə çevrilməsi bizim özümüz qədər bütün dünya üçün də qlobal əhəmiyyət kəsb edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Təbii qazın Avropaya nəqli prosesi həlledici mərhələdir

## TAP layihəsi üzrə işlərin 87 faizdən çoxu tamamlanıb

Hazırda Azərbaycan təxminən 40 milyard dollarlıq investisiya qoyuluşu nəzərdə tutulan, uzunluğu 3 min 500 kilometr və 4 seqmentdən ibarət olan "Cənub qaz dəhlizi" layihəsini reallaşdırmaqla Avrasiyanın enerji xəritəsini yenidən tərtib edir.



Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub qaz dəhlizi" Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunan təbii qazı 7 ölkədən - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyadan keçən boru kəmərləri ilə Avropaya nəql edəcək. Bu boru kəməri zəncirinin Türkiyəyədək olan hissəsi, yəni Azərbaycan ilə Gürcüstanda genişləndirilən Cənubi Qafqaz Boru Kəməri və TANAP artıq istismar olunur, "Şahdəniz-2" qazı Türkiyəyə nəql edilir. Zəncirin son halqası - Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan Transadriatik (TAP) qaz boru kəməri layihəsi isə qrafik üzrə icra olunur. Artıq 3 ildir ki, TAP boru kəmərinin inşasına başlanılıb və layihə üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 87 faizdən çoxu yekunlaşıb. Layihə Avropanın enerji təhlükəsizliyi, o cümlədən mənbələrin və marşrutların şaxələndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu boru kəmərinin Azərbaycanın kommersiya qaz həcmlərini 2020-ci ildə Avropaya çatdıracağı gözlənilir.

# "Koreya problemli kreditlərin həlli üzrə əldə etdiyi nailiyyətləri Azərbaycanla bölüşməyə hazırdır"



Bu barədə jurnalistlərə müsahibəsində Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq Op deyib.

Səfir bildirib ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafına kömək edəcək: "1997-ci il noyabrın əvvəlindən dekabrın sonunadək Koreyada olan iqtisadi problemlərlə bağlı biz Beynəlxalq Valyuta Fondundan çoxlu sayda kredit cəlb etmişdik. Həmçinin bildiyiniz kimi, Koreya çox güclü dövlətlərlə əhatə olunub. Biz həm də sürətli inkişafa nail olan bir ölkəyik. Koreyada da problemli kreditlər meydana gəlmişdi və biz bu problemləri xüsusi formada aradan qaldıraraq inkişafa nail olduq".

# Kiçik və orta biznesin inkişafında ictimai şuraların roluna dair müzakirələr aparılıb

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yanında fəaliyyət göstərən İctimai Şuranın təşkilatçılığı ilə "Kiçik və orta biznesin inkişafında ictimai şuraların rolu" mövzusunda forum keçirilib.

Bu formatda ilk dəfə olaraq təşkil edilən forumda müxtəlif nazirliklərin, komitə və agentliklərin yanında fəaliyyət göstərən ictimai şuraların sədrləri və üzvləri, QHT təmsilçiləri, eləcə də sahibkarlar iştirak ediblər.

Tədbirdə dövlət qurumlarının fəaliyyətinə və onlar tərəfindən qəbul edilən qərarların səmərəliliyinə ictimai nəzarətin təmin edilməsinin əhəmiyyəti, bu sahədə ictimai şuraların fəaliyyətinin önəmi vurğulanıb, müxtəlif dövlət strukturlarının, xüsusilə də sahibkarlarla işləyən qurumların yanında fəaliyyət göstərən ictimai şuraların işi barədə danışılıb, kiçik və orta biznesin inkişafında ictimai şuraların rolunun artırılması müzakirə edilib, müxtəlif təkliflər səsləndirilib.

Forumda çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı, bu sahədə həyata keçirilən tədbirlər barədə danışıb, KOBİA tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlərin və həyata keçirilən tədbirlərin, agentlik yanında İctimai Şuranın yaradılmasının əhəmiyyətini qeyd edib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ictimai şuraların önəmini qeyd edərək qanunvericiliyin təkmilləşdirilməsi sahəsində keçirilən ictimai müzkirələrdə ictimai şura üzvü olan vətəndaş cəmiyyəti təsisatlarının mühüm rolunu diqqətə çatdırıb. Bildirib ki, şəffaflığın artırılmasında da ictimai şuraların rolu əhəmiyyətlidir. Yaranmasından qısa müddət ötsə də, KOBİA yanında İctimai Şuranın müsbət fəaliyyətini görürük. Ə.Hüseynli belə forumların ayda bir dəfə müxtəlif ictimai şuralar tərəfindən təşkil olunmasının əhəmiyyətli olacağını da vurğulayıb.

KOBİA-nın idarə heyəti sədrinin müavini Nadir Adilov isə qeyd edib ki, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın qurulması agentliyin əsas fəaliyyət istiqamətlərindəndir və bu baxımdan 2018-ci ildə KOBİA yanında yaradılmış İctimai Şuranın fəaliyyətinə xüsusi önəm verilir.

# Metrologiya İnstitutunun Keyfiyyəti İdarəetmə sistemi beynəlxalq səviyyədə tanınıb

Azərbaycan Metrologiya İnstitutunun Keyfiyyəti İdarəetmə sistemi beynəlxalq səviyyədə tanınıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Metrologiya İnstitutunun baş direktoru Saleh Səmədov jurnalistlərə müsahibəsində deyib.

O bildirib ki, Azərbaycan Metrologiya İnstitutu publik hüquqi şəxs olaraq 2017-ci ildə ləğv edilmiş Dövlət Metrologiya Xidmətinin bazasında yaradılıb. İnstitut ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində dövlətin funksiyalarını həyata keçirən yeganə milli orqandır.

Respublikamızda metrologiya sahəsinin dövlətin daim diqqət mərkəzində olduğunu deyən institut rəhbəri bu istiqamətdə aparılan islahatlardan danışıb. Qeyd edib ki, institutun Keyfiyyəti İdarəetmə sistemi beynəlxalq səviyyədə tanınıb və bu barədə beynəlxalq ekspertlər qrupu tərəfindən qiymətləndirilərək müvafiq təsdiqedici sənəd təqdim olunub. Bu isə ölkəmizin metrologiya sahəsində əldə etdiyi ən böyük nailiyyətlərdəndir.

# Qobustan təhsilində dinamik inkişaf var

## Bu, öz təsdiqini yeni inşa olunan məktəblərlə yanaşı, tədrisdəki göstəricilərdə də tapır

Hazırda ölkəmizdə bütün sahələr üzrə nəzərəçarpacaq dərəcədə uğurlar müşahidə edilməkdədir. Real vəziyyət təhsildə də özünü göstərməkdədir. Eyni zamanda təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verməsindən qaynaqlanır. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyevin "Neft Azərbaycanın milli sərvətidir" deyimi XXI yüzillikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində yeni bir modeldə həqiqətə çevrildi.



Azərbaycan Prezidentinin dünya ictimaiyyətinə ünvanladığı "qara qızılı insan kapitalına çevirmək" mesajı 2003-cü ildən başlayaraq dövlət siyasətinin mühüm tərkib hissəsi oldu. Səbəb aydındır: müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir.

Bu reallıqlar, yüksək təhsil səviyyəsi gənc rayonlarımızdan olan Qobustanda da hiss olunmaqdadır. Bunun konkret inikası öz təsdiqini faktlarda tapır. Bu gün rayonda 30 ümumtəhsil məktəbi fəaliyyət göstərir ki, bunlardan da 18-i tam orta, 9-u ümumi orta, 3-ü isə ibtidai məktəblərdir. 2018-2019-cu dərs ilində rayonun ümumtəhsil məktəblərində 5196 nəfər şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 571 nəfər müəllim məşğul olur. Rayonun ümumtəhsil müəssisələrində şəbəkə üzrə 333 sinif komplekti təşkil olunub.

Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illərdə rayonda 14 yeni məktəb binası tikilib. 4 məktəb əsaslı təmir edilib, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilib və ən müasir avadanlıq və texniki qurğularla təmin olunub. 2018-2019-cu dərs ilində şəhər 3 saylı tam orta məktəb üçün müasir tələblərə cavab verən 624 yerlik yeni məktəb binasında işlər yekunlaşdırılıb. Təsi və Sədəf kənd ümumi orta məktəbləri üçün tikilmiş modul tipli yeni məktəb binaları da şagird və müəllimlərin istifadəsinə verilib. Hazırda Şixzərli kənd ümumi orta məktəbi üçün 96 yerlik modul tipli məktəb binasının tikintisi yekunlaşma mərhələsindədir.

Təhsil şöbəsinin müdiri Füzuli Gülalıyev deyir ki, dövlətin göstərdiyi diqqət, verdiyi dəstək mütləq əməli işlə cavablandırılmalıdır. Hər bir işə əldə olunan nəticəyə görə qiymət verilir. Nəticə isə əsasən uğurludur. İstər buraxılış, istər ali məktəbə qəbul imtahanlarında, istərsə də şagirdlərin respublika fənn olimpiadalarında və digər yarışlarda göstərdiyi nəticələr ürəkaçandır. Artıq 5 ildir ki, bütün göstəricilərdə dinamika müşahidə edilməkdədir.

Qobustan Rayon Təhsil Şöbəsi istedadlı şagirdlərin üzə çıxarılması, onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məsələlərinə də xüsusi diqqət yetirir. Rayonun tarixində ilk dəfə olaraq ötən dərs ilində 5 nəfər şagird olimpiadanın respublika turunda iştirak etmək hüququ qazanıb. Bunlar şəhər 2 saylı, 3 saylı, Cəyirli və Sündü kənd tam orta məktəblərinin şagirdləri olublar.

Rayonu təmsil edən Sündü kənd tam orta məktəbinin şagirdi Aydın Ağaverdiyev 3 il ardıcıl olaraq respublika fənn olimpiadasının qalibi olmaqla bərabər rayon tarixində ilk dəfə qəbul imtahanında ən yüksək - 683 bal toplayıb. Bundan əlavə, 1 nəfər şagird tam orta təhsil pilləsini qızıl medalla başa vurub. Bu nailiyyət respublika üzrə 185 nəfər şagirdin qazandığı uğurdan biridir. Əldə edilən uğurlardan biri də şagirdlərin yüksək biliklər nümayiş etdirərək qazandıqları fərqlənmə attestatlarıdır. Belə ki, şəhər 3 saylı, şəhər 2 saylı tam orta məktəblərin hər birindən 1 nəfər, Çuxanlı kənd tam orta məktəbindən isə 2 nəfər fərqlənmə attestatı alıb. Ötənilki məzunlardan 110 nəfərdən çoxu ali məktəb tələbəsi adını qazanıb ki, bu da 43 faiz nəticə deməkdir. Müqayisə üçün deyək ki, 2017-ci ildə 82 nəfər şagird tələbə adını qazanmışdısa, 2018-ci ildə onların sayı 111 nəfər olub. Kolleclərə qəbul olunan şagirdlərin sayı isə 40 nəfəri keçib. Əvvəlki illərdə hər il 1-2 nəfər yüksək bal topladığı halda, 2018-ci ildə 15 nəfər məzun 500-dən çox, 6 nəfər məzun isə 600-dən yuxarı bal toplayıb.

Rayonda tibb kadrlarına olan zəruri tələbatın ödənilməsi məqsədilə tədbirlər davam etdirilir. Nəticədə 2018-ci ildə 2 məzun Tibb Universitetinə, 7 nəfər şagird isə Tibb kollecinə qəbul olunub.

Ulu öndərin bizə bəxş etdiyi müstəqil Azərbaycanı qoruyub saxlamaq, inkişaf etdirmək ümumtəhsil müəssisələrində təhsil alan gənclərimizin qarşısında duran əsas vəzifələrdən biridir. Gənclərin bu istiqamətdə bilik və bacarıqlarının inkişaf etdirilməsi, onların hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması günümüzün ən vacib məsələlərindəndir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə onun həyat və fəaliyyətinə həsr olunmuş silsilə tədbirlər, müxtəlif idman oyunları - şahmat, dama, futbol yarışları və inşa yazı müsabiqəsi keçirilib. Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş təqdimatın respublika mərhələsində Qobustan şəhər 2 saylı tam orta məktəbin X sinif şagirdi Zenfira Mirzəliyeva uğurla çıxış edib. Ötən il ulu öndərin 95-ci ildönümünə həsr olunmuş təqdimatda Çuxanlı kənd tam orta məktəbin X sinif şagirdi Elmir Qasımlı müsabiqənin qalibi adını qazanıb. Artıq ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş inşa və təqdimat müsabiqələrində qalib gəlmək rayonun şagirdləri üçün ənənəyə çevrilib. Belə ki, son 5 ildə rayonun məktəbliləri ardıcıl olaraq bu müsabiqənin respublika mərhələsinin qalibi olurlar. İnanırlar ki, builki təqdimatda da uğurlu çıxışları onlara qələbə gətirəcəkdir.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində hərbi idman və intellektual oyunlarının çox böyük əhəmiyyəti var. Rayonun şagirdləri Təhsil Nazirliyinin digər nazirliklərlə birgə keçirdiyi respublika səviyyəli bir sıra idman və intellektual xarakterli yarışlarda qalib gələrək mükafata layiq yerlər tutublar. Belə ki, şagirdlər "Şahin" hərbi idman oyunlarında IV yerə, "Gənc xilasedici və yanğınsöndürən" yarışında III yerə layiq görülüblər.

Rayonun pedaqoji işçiləri Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti dəstəkləməklə öz qüvvə və bacarıqlarını səfərbər edir, təhsil islahatının məktəb qarşısında qoyduğu vəzifələrin və yeniliklərin həyata keçirilməsi üçün əllərindən gələni bundan sonra da əsirgəməyəcəklərini bildirirlər.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Məhkəmə hüquq islahatlarının əsas istiqamətləri sahibkarlarla müzakirə edilib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü, Azərbaycan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə mayın 20-də "Fairmont Baku" mehmanxanasında "Məhkəmə hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi" mövzusunda tədbir keçirilib.




Tədbiri açan Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev bildirib ki, "Məhkəmə hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli fərmanı Azərbaycanın məhkəmə hüquq sistemində islahatların dərinləşdirilməsi məqsədi daşıyır. Hazırda bu sahədə islahatlar davam edir və yeni iqtisadi formasiyaya keçid bu islahatların daha dərin aparılmasını zəruri edir.

M.Musayev qeyd edib ki, Azərbaycanda hüquqi dövlət quruculuğu ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdən başlayıb və 1995-ci il 12 noyabrda müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilərək ədalət mühakiməsinin qanunvericilik bazası formalaşdırılmışdır. Dövlət başçısının imzaladığı fərman isə formalaşdırılmış məhkəmə hüquq sisteminin daha da təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, ən mütərəqqi beynəlxalq təcrübənin tətbiqini nəzərdə tutur. Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti fərmanla Azərbaycanda sahibkarların problemlərinin daha çevik həll edilməsi, qərarların icrasının daha sürətli həyata keçirilməsi üçün özəl icra qurumunun yaradılmasını nəzərdə tutur. Eyni zamanda, elektron məhkəmə sisteminin əhatə dairəsi genişləndiriləcək, məhkəmə işlərinə baxılmasında elektron resurslardan istifadənin səviyyəsi yüksələcək, elektron imzanın tətbiqi sahələri genişləndiriləcəkdir. Bununla yanaşı, vergi, gömrük, sosial sığorta ödənişləri üzrə ixtisaslaşmış məhkəmələr sahibkarlıq subyektləri ilə bağlı məhkəmə mübahisələri üzrə alternativ həll mexanizmlərini - Arbitraj, Mediasiya institutları mübahisələrin həllində çevikliyi artıracaqdır. Nəticədə proseslərin müddətinin uzadılmasının qarşısı alınacaq və şikayətlərə baxılma müddətləri azalacaq. Hazırda məhkəmələrin iş yükü çoxdur və yeni alternativ mexanizmlərin və ixtisaslaşmış məhkəmələrin yaradılması iş yükünün azalmasına, habelə məhkəmə işlərinə hakimlər tərəfindən daha qısa müddətdə baxılmasına imkan verəcəkdir. Bununla da sabit məhkəmə praktikasının formalaşdırılması hüquq sisteminə etibarın güclənməsinə səbəb olacaqdır.

M.Musayev habelə qeyd edib ki, fərmanda Azərbaycan Sahibkarlar Konfederasiyasına tövsiyə edilmiş məsələlər də vardır və bununla bağlı sahibkarlardan, hüquqşünaslardan ibarət işçi qrup yaradılmışdır. Fərmanın icrası ilə bağlı Ədliyyə Nazirliyi yanında yaradılmış işçi qrupunda da Azərbaycan Sahibkarlar Konfederasiyası təmsil olunur.

O, Azərbaycan Sahibkarlar Konfederasiyasının bugünkü ictimai müzakirələrdə təkliflərdən ibarət təqdimatla çıxış edəcəyini bildirərək bütün iştirakçıları aktiv olmağa çağırdı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov müzakirələrin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə aparıldığını bildirərək qeyd etdi ki, ictimai müzakirələr fərmanın effektiv işləməsinə dəstək olacaq və belə müzakirələr bundan sonra da davam edəcəkdir. 2017-ci ildə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlıq Agentliyinin və Qida Təhlükəsizliyi Dövlət Agentliyinin yaradılması, 2018-ci ildə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılmasını nəzərdə tutan fərmanların imzalanması, Dövlət Turizm Agentliyinin, Əqli Mülkiyyət Agentliyinin yaradılması və digər tədbirlər məhz Azərbaycanda biznes mühitinin müasirləşdirilməsi, dövlət orqanları ilə fəaliyyətdə sahibkarların münasibətlərinin yaxşılaşdırılmasını nəzərdə tutur. 2018-ci ildə aparılmış islahatlar bütövlükdə növbəti addımlar üçün zəmin yaratmışdır. Növbəti addım isə bu gün bizim müzakirə etdiyimiz məhkəmə hüquq sahəsində görülən işlərdir ki, bu da dövlət orqanları ilə sahibkarların münasibətlərinin institusional müstəvidə aparılmasını nəzərdə tutur.

Prezident İlham Əliyev tərəfindən imzalanan "Məhkəmə hüquq sahəsində islahatların dərinləşdirilməsi" ilə bağlı fərmanda sahibkarlar üçün yeni imkanların yaradılması nəzərdə tutulur.

Daha sonra iştirakçıların diqqətinə statistik məlumatları çatdıraraq vurğuladı ki, 2018-ci ildə Azərbaycan məhkəmələrində 246 920 işə baxılmışdır. Həmin işlərdən 17 307-ni inzibati işlər, 5000-i iqtisadi işlər təşkil edir. 2018-ci ildə Azərbaycanda birinci instansiya məhkəmələrində 12539 cinayət işlərinə baxılıb. Onlardan 10172-si ittiham hökmü ilə nəticələnib, 89-u bəraətlə başa çatıb. Burada əsas yük rayon məhkəmələrinin üzərinə düşür. Bu işlər də əsasən iqtisadi xarakter daşıyır. 2020-ci ildə qəbul edilməsi nəzərdə tutulan "Rəqabət Məcəlləsi" də görülən tədbirlərin bir hissəsi olcaqdır.

G.Kərimov mübahisələrin alternativ həll variantlarının yaradılmasının sahibkarlığın inkişafına kömək məqsədi daşıdığını bildirərək, 6 mindən çox üzvü olan Azərbaycan Sahibkarlar Konfederasiyasının tərkibində Mediasiya Məktəbi kimi bir qurumun yaradılmasını təklif etdi və yerli arbitraj məhkəmələrinin fəaliyyətə başlaması ilə əlaqədar ümumilikdə məhkəmələrin yükünün azalacağını vurğuladı.

Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev çıxış edərək bildirdi ki, bu gün Azərbaycanda bütün sahələrdə islahatlar davam etdirilir. Son dövrlərdə həyata keçirilən islahatlar bunu deməyə əsas verir ki, məhkəmə hüquq sistemində davam edən islahatların dəstəklənməsinə ehtiyac var. Həmçinin fərmanın əsas məqsədi ədalət mühakiməsinin effektivliyinin, ədalət mühakiməsinə əlçatanlığın təmin edilməsidir.

Tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Azər Cəfərov xatırladıb ki, Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli sərəncamı ilə "Elektron məhkəmə" informasiya sistemi fəaliyyət göstərir. Onun sözlərinə görə, hazırda sistem, Naxçıvan da əhatə olunmaqla, ölkə məhkəmələrinin və icra qurumlarının əksəriyyətində tətbiq olunur. Belə ki, bu sistem məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir. "Elektron şəxsi kabinet" vasitəsilə proses iştirakçıları elektron imza ilə təsdiqlənmiş elektron iddia ərizəsi və digər sənədlər vermək, məhkəmə proseslərini izləmək, təyin olunmuş proseslər barədə SMS, elektron məktubla xəbər tuta, məhkəmə qərarlarını elektron formatda hakimin elektron imzası ilə əldə edə bilirlər".

Nazir müavini qeyd edib ki, icra orqanlarının fəaliyyətinin effektivliyinin artırılması, bu fəaliyyətdə operativliyin və şəffaflığın təmin olunması məqsədilə "Elektron icra" sistemi yaradılaraq tətbiq olunur.

Daha sonra tədbirdə çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov agentliyin əsas fəaliyyət istiqamətlərindən birinin də kiçik və orta biznes (KOB) subyektlərinin qanuni maraqlarının müdafiəsi olduğunu, bunun agentliyin digər istiqamətlər üzrə fəaliyyətinin effektivliyinə birbaşa təsir etdiyini qeyd etdi. O, bildirdi ki, ötən illər ərzində məhkəmə hüquq sistemi sahəsində həyata keçirilən islahatlar məhkəmə institutunun möhkəmləndirilməsində əhəmiyyətli nəticələrlə müşayiət edilib. Dövlət başçısının bu sahədəki müvafiq fərmanında da qeyd edildiyi kimi, ölkənin davamlı inkişafının təmin edilməsi istiqamətində bütün sahələrdə reallaşdırılan islahatlar məhkəmə hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Bu baxımdan "Məhkəmə hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında əksini tapmış tədbirlər ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına və bunun nəticəsi olaraq, ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına xidmət edəcək məsələləri əhatə edir. Orxan Məmmədov fərmanda qeyd edilən məsələlərin sahibkarların hüquqlarının qorunması, kiçik və orta biznes subyektlərinin problemlərinin həlli baxımından əhəmiyyətini qeyd edərək, hakimlərin sahibkarlıqla bağlı biliklərinin artırılması, sahibkarlar üçün vahid məhkəmə təcrübəsi barədə maarifləndirici tədbirlərin keçirilməsinə, məhkəmə sistemində elektron kargüzarlığa keçidə, məhkəmə qərarlarının məzmununun sadələşdirilməsinə dair təklifləri səsləndirib.

Məhkəmə hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında müzakirələrdə iştirak edən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev, Ali Məhkəmənin hakimi Xəqani Məmmədov çıxış edərək bu məsələ ilə bağlı fikirlərini bildiriblər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının baş katibinin müavini Xaqan Hümmətzadə "Sahibkarlıqla bağlı mübahisələrin həll edilməsi mexanizmlərinin səmərəliliyinin artırılması" mövzusunda çıxış edərək sahibkarların yekdil fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Müzakirələr zamanı sahibkarlıq subyektləri barədə statistik məlumatlar açıqlandı və qeyd edildi ki, 1 aprel 2019-cu il tarixinə Azərbaycanda 996 min 296 sahibkarlıq subyekti fəaliyyət göstərir. Onlardan 133 min 541-i hüquqi şəxs və 862 min 755-i isə fərdi sahibkarlıq subyektləridir.

Müzakirələrin sonunda sahibkarları maraqlandıran suallar cavablandırıldı.

***"Azərbaycan"***

# İtaliya-Azərbaycan Dizayn Mərkəzinin açılışı olub



Mayın 20-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) İtaliya-Azərbaycan Dizayn Mərkəzinin açılış mərasimi olub.



AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova ötən ilin iyul ayında iki ölkə arasında bir çox sahədə əməkdaşlıq sənədlərinin, o cümlədən AzMİU ilə Milan Politexnik Universiteti arasında anlaşma memorandumunun imzalandığını xatırladıb. Rektor qeyd edib ki, həmin sənəddən irəli gələn məsələlərdən biri AzMİU-nun nəzdində İtaliya-Azərbaycan Dizayn Mərkəzinin yaradılması təşəbbüsü olub.

Professor Gülçöhrə Məmmədova mərkəzi yaratmaqda məqsədin ölkəmizdə dizayn ixtisası üzrə təhsil alan savadlı, bacarıqlı mütəxəssislər yetişdirmək, dizayn təhsilinin İtaliya dizayn təhsili səviyyəsinə yüksəlməsinə çalışmaq olduğunu vurğulayıb. Rektor AzMİU-da dizayn ixtisasını modernləşdirmək üçün təhsil proqramlarını da italyanların proqramına uyğunlaşdırmağın vacibliyini və bu istiqamətdə müəyyən işlər görüldüyünü bildirib.

Gülçöhrə Məmmədova bu il ilk dəfə olaraq dizayn ixtisası üzrə ingilisdilli tədrisin aparıldığını, bununla da ilkin addımlar atıldığını söyləyib. Rektor AzMİU-nun və Milan Politexnik Universitetinin birgə həyata keçirdiyi layihənin 2 il müddətində gerçəkləşdiriləcəyini, gələcəkdə bu müddətin artırılması, ikili diplom proqramların həyata keçirilməsinin qarşıya məqsəd qoyulduğunu diqqətə çatdırıb.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə daim xüsusi önəm verdiyini vurğulayıb.

Nazir deyib ki, AzMİU-da İtaliya-Azərbaycan Dizayn Mərkəzinin yaradılması ölkələrimiz arasında humanitar sahədə ikitərəfli əməkdaşlığın inkişafına dövlət səviyyəsində verilən yüksək diqqət və önəmin bariz nümunəsidir. Nazir belə bir mərkəzin yaradılmasının qeyd olunan iki universitet arasında faydalı əməkdaşlığın inkişafı üçün geniş imkanlar açacağını söyləyib.

Ceyhun Bayramovun sözlərinə görə, mərkəz Azərbaycanda dizayn ixtisası üzrə yüksəkixtisaslı mütəxəssis hazırlığının təkmilləşdirilməsinə, bu istiqamətdə iki ölkə arasında tələbə və müəllim mübadiləsinin inkişafına, birgə tədqiqatların aparılmasına mühüm töhfə verəcək. Hazırda ölkəmizin bir neçə universitetində dizayn ixtisası üzrə mütəxəssis hazırlandığına toxunan nazir həmin ali təhsil müəssisələrinin də bu layihədən faydalana biləcəyini diqqətə çatdırıb.

Ceyhun Bayramov yeni mərkəzin açılışı münasibətilə AzMİU kollektivini təbrik edərək onlara uğurlar arzulayıb.

İtaliyanın Bakıdakı səfiri Auqusto Massarini öz ölkəsi ilə Azərbaycan arasında təhsil əlaqələrinin əhəmiyyətindən bəhs edib. Səfir yeni mərkəzin dizayn ixtisasında təhsil alan tələbələrin mütəxəssis kimi yetişməsində mühüm rolu olacağına əminliyini vurğulayıb.

Milan Politexnik Universitetinin Dizayn Məktəbinin dekan müavini Françesco Zurlo və digər çıxış edənlər də mərkəzin təşkil olunmasını yüksək qiymətləndiriblər.

Sonra tədbir iştirakçıları dizayn ixtisasında təhsil alan tələbələrin italyan müəllimlərin rəhbərliyi altında keçirilən vorkşopda hazırladığı layihələrin təqdimatına baxıblar.

İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Könül Şirin qonaqları mərkəzin Sürətli Prototipləşdirmə Laboratoriyası, Maket studiyası və Ağac Emalatxanası ilə tanış edib.

Mərasimdə Milan Politexnik Universitetinin dizayn kafedrasının rəhbəri, professor Silvia Piardi, professor Mauro Cecenello, dosent Silvia Qrameqna iştirak ediblər.

# Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər

Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərindəki hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.



DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi andı qəbul etdikdən sonra tədbir iştirakçılarına xidmət rəisi, general-polkovnik Elçin Quliyevin təbriki çatdırılıb.

Mərasimdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycanın sərhəd mühafizəsinin formalaşması və inkişafındakı xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilib.

Çıxış edənlər vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və Azərbaycanın sərhəd mühafizəsinin 100 illik yubileyini xidmətdə qazanılmış yüksək nailiyyətlərlə qarşılayacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulayıblar.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə olunub. Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin DSX-yə həvalə edilməsi şərəf və qürur olmaqla yanaşı, eyni zamanda, Ali Baş Komandanın Azərbaycan sərhədçisinə etimad və etibarının ifadəsi kimi dəyərləndirilib.

Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək vətənin sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

***"Azərbaycan"***

# Ermənistanda inqilabın ikinci mərhələsi başlanır

## N.Paşinyan R.Koçaryanı Qarabağı Azərbaycana təhvil verməyə hazırlaşmaqda günahlandırır, sabiq prezident isə baş naziri dövlətə xəyanətdə ittiham edir

*Əvvəli 1-ci səh.*

Özünün həbsini siyasi motivlərlə əlaqələndirərək qeyd edib ki, indi Ermənistanda Paşinyana qarşı yeni siyasətçilər və siyasi partiyalar meydana çıxır. O, bu siyasi qüvvələrlə birləşəcəyi ehtimalı ilə bağlı suala da müsbət cavab verib, lakin bunun hansı formada olacağına aydınlıq gətirməyib.

"Məxməri inqilabın" heç də inqilab olmadığını və xalqın artan narazılığının nəticəsi olduğunu deyən Koçaryan vurğulayıb ki, Paşinyanın hakimiyyəti dövründə ölkədə müsbət istiqamətdə heç bir dəyişiklik baş verməyib: "Yalnız populizm, rəhbərlikdə diletantlıq və cəmiyyətdə aqressiya artıb".

Gözlənilir ki, Paşinyana qarşı yaranacaq yeni partiyaya da məhz Koçaryan rəhbərlik edəcək.

### Məhkəmə Koçaryanı azadlığa buraxdı

Paşinyan isə Koçaryanı neytrallaşdırmaq üçün onu həbsdə saxlamağı düşünsə də, hazırda proseslər gözlənilmədən fərqli məcrada inkişaf edib. Məsələ bundadır ki, Paşinyanın istəyinin əksinə olaraq Yerevanın birinci instansiya məhkəməsi Robert Koçaryanı həbsdən azad edib.

Daha öncə Qarabağ separatçılarının lideri Bako Saakyan və onun sələfi Arkadi Qukasyan birbaşa məhkəmə zalında zəmanət verərək, hərəsi 500 min dram və ya təxminən 1000 dollardan bir az çox təzminat ödəyiblər. Məhkəmə binasının qarşısına Ermənistanın eks-prezidentinin tərəfdarları və əleyhdarları toplaşıblar. Tərəfdarlar məhkəmənin qərarı ilə bağlı sevinclərini ifadə ediblər.

### Yerevanda bütün məhkəmələrin giriş-çıxışları bağlanılıb

Xatırladaq ki, keçmiş prezidentin həbsdən azad edilməsinə etiraz edən Paşinyan xalqı küçələrə çıxmağa çağırıb. O, ölkədə inqilabın ikinci mərhələsinin başladığını bildirib. Paşinyanın tərəfdarları onun çağırışı ilə paytaxt Yerevanda bütün məhkəmələrin giriş-çıxışlarını bağlayıblar. Etirazçılar tərəfindən Konstitusiya Məhkəməsinə heç kim buraxılmayıb. Şenqavit dairə Məhkəməsinin hakimi David Balayan binaya pəncərədən daxil olmaq istəsə də, onu itələyərək içəri girməsinə imkan verməyiblər.

İctimai fəal Ruben Melikyan nümayişçilərin məhkəmə binalarının şüşələrini sındırdığını bildirib: "Paşinyanın müraciəti əsasında toplaşan əhali artıq məhkəmə binasının şüşələrini sındırıb və hakimlərin işinə mane olublar. Polis əməkdaşları isə heç bir tədbir görmür. Bunu həzm edə bilməyəcəksiniz, Nikol Paşinyan".

Ermənistanın ombudsman aparatının rəhbəri Arman Tatoyan isə bildirib: "Respublikanın bütün məhkəmələrinin giriş və çıxışlarına maneə yaratmaq barədə Ermənistan baş nazirinin çağırışı, bəyanatı ölkənin hüquq sisteminin təhlükəsizliyi və sabitliyi üçün son dərəcə təhlükəlidir".

A.Tatoyan Nikol Paşinyanın bu çağırışını məhkəmələrin işinə müdaxilə adlandırıb və onu ölkədə sabitliyi pozmaqda ittiham edib: "Mən Ermənistan vətəndaşlarını məhkəmələrin binalarını bloklayan tədbirlərdən çəkinməyə çağırıram, əks halda hansısa bir gərginliyin baş verəcəyini istisna etməməliyik. Sosial şəbəkələrin monitorinqi göstərir ki, vətəndaşlar bir-birlərinə qarşı ən yüksək dərəcədə dözümsüzlük nümayiş etdirirlər, bir-birlərini təhqir və təhdid edirlər. Bu, ölkənin insan haqlarının müdafiəsi baxımından təhlükəlidir".

### Paşinyan xalqı küçələrə çıxmağa çağırıb

Paşinyan isə bütün bunlara rəğmən ölkədə fəaliyyət göstərən məhkəmələrin binalarına girişin bağlanılması fikrindən imtina etməyib: "Xalqım, utancaq olma! Evdən çıxarkən çətirləri unutma, hamınızı sevirəm". Baş nazir Yerevanda öz tərəfdarları qarşısında bildirib ki, 2016-cı ilin aprel müharibəsi ilə bağlı bütün xüsusatları araşdırmaq üçün parlament komissiyası yaratmağın vaxtı çatıb.

Qeyd edib ki, əvvəlki korrupsioner-kriminal rejimdən daha çox Dağlıq Qarabağ əhalisi zərər çəkib: "İndi isə bu korrupsioner sistemin bəzi nümayəndələri öz şəxsi əlaqələrindən istifadə edib Ermənistan hökumətinə və baş nazirinə qarşı təbliğat qurublar. Bütün faktları araşdıraraq mən bunun arxasında yeni müharibə başlatmağa və hətta ola bilsin Qarabağı Azərbaycana verməyə hesablanmış qəsd planının dayandığını görürəm. Bu fəaliyyəti dövlətə xəyanətə bənzədirəm və baş nazir kimi həmin qəsd planının qarşısını almaq üçün ən sərt tədbirlər görəcəyəm". Daha sonra Paşinyan yenidən canlı yayımda xalq qarşısında çıxış edərək bir daha inqilabın ikinci mərhələsini elan edib.

Ermənistan prezidenti Armen Sarkisyan ölkədə məhkəmələrə girişin bağlanılması ilə bağlı fövqəladə bəyanat verib. Dövlət başçısı insanları sakitləşməyə və Konstitusiyaya hörmət etməyə çağırıb. O, məhkəmələrin şəffaf fəaliyyət göstərməsinin vacib olduğunu da deyib.

Amma hadisələrin inkişaf axarı Ermənistanda vəziyyətin yenidən qarşıdurma həddinə çatdığını göstərir və ölkədə yaranan xaosun daha da dərinləşməsi proqnozlaşdırılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Vətəndaşların qəbulu keçirilib

Mayın 20-də Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Lənkəranda, sədr müavini Namiq Babayev isə Masallıda vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, Lənkəran rayonunda keçirilən qəbulda Lənkəran, Astara və Lerik rayonlarının, Masallı rayonunda keçirilən qəbulda isə Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayonlarının sakinləri iştirak ediblər.

Görüşlərdə, əsasən buraxılış imtahanlarının nəticələri, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, magistraturaya qəbul, əvvəlki illərin məzunlarının qəbulu və digər məsələlərlə əlaqədar müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə və N.Babayev tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.



# Cəfər Cabbarlı-120









● Cabbarlı irsi

**"Cabbarlının ədəbi irsi xalqın qəlbində və şüurunda, müasirlərimizin adlarında və ənənələrində, yeni-yeni oxucu və tamaşaçı nəsillərinə sənətkarın mənəvi təsirinin zəifləmək bilməyən gücündə yaşayır. Bax budur görkəmli sənətkarın ölməzliyi. Cəfər Cabbarlı ədəbi irsi daşda və tuncda, küçələrin, meydançaların və mədəniyyət ocaqlarının adlarında, ədəbiyyatşünasların əsərlərində və yazıçıların, bəstəkarların, rəssamların yaradıcılığında əbədiləşmişdir".**

**Heydər ƏLİYEV**



# Varlığında bir dünya çırpınırdı

**Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, yazıçı, dramaturq, kinossenarist, tərcüməçi, publisist, teatrşünas və ictimai xadimdir. O, milli dramaturgiyamızın yeni mərhələsinin yeni tarixi şəraitdə yaradıcısıdır. Görkəmli sənətkar milli azadlıq ideyaları və istiqlal idealının iştirakçısı və tərənnümçüsüdür.**

Cəfər Cabbarlının sovet və müstəqillik dövrü Azərbaycan ədəbiyyatında xüsusi yeri və mövqeyi vardır. Təsadüfi deyil ki, sovetlər zamanında onun ev-muzeyi və abidəsinin açılışında ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Müstəqillik dövründə görkəmli dramaturqun 100 illik yubileyinə ulu öndər, 120 illik yubileyinə isə Prezident İlham Əliyev sərəncam vermişdir. 100 illik yubileyin keçirilməsi haqqında sərəncamda deyilir. "Cəfər Cabbarlı dərin zəkası və milli ruhu ilə səciyyələnən dahi sənətkar kimi özündən sonra zəngin bədii irs qoyub getmişdir". 120 illik yubileyin keçirilməsi haqqındakı sərəncamda isə oxuyuruq: "Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının geniş şöhrət tapmış nadir simalarındandır. Klassik ədəbi irs zəminində yetişən ədib milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsinə çevirmişdir. Dramaturgiyamızın təşəkkülü və yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyan Cəfər Cabbarlının əsərləri milli teatrda mühüm hadisə kimi dəyərləndirilmiş, uzun illər boyu tamaşaçıların bir neçə nəslinin estetik zövqünün formalaşmasında əvəzsiz rol oynamışdır". Göründüyü kimi, zəngin ədəbi irsə varislik hər iki sərəncamda güclü ifadə olunmuşdur.

## Milli ruhlu sənətkar

Ümummilli lider Heydər Əliyev Cəfər Cabbarlı irsini həmişə yüksək qiymətləndirmiş, Azərbaycan mədəniyyəti və teatrından söhbət gedəndə bu milli ruhlu yazıçının adını çəkmiş, ona hörmətini ifadə etmişdir. Bu hörmət əməli təzahürünü görkəmli sənətkarın ev-muzeyi və abidəsinin açılışında da göstərmişdir.

23 mart 1982-ci ildəki açılışda ulu öndər görkəmli dramaturqa hörmət və məhəbbətini belə ifadə etmişdir: "Cəfər Cabbarlının adı Azərbaycanda dramaturgiyanın, səhnə sənətinin və kinematoqrafiyanın təşəkkülü və inkişafı ilə qırılmaz surətdə bağlıdır. Doğma xalqının nəğməkar oğlu olan Cəfər Cabbarlı əsl beynəlmiləlçi idi, özünün bütün ilhamlı yaradıcılığı ilə xalqların dostluğu və qardaşlığı ideyalarını bərqərar edirdi. Həmid Sultanov küçəsində yaşadığı 44 nömrəli evdə Xatirə muzeyinin yaradılması yazıçıya hörmət və məhəbbətin ifadəsi olmuşdur. Martın 23-də Xatirə muzeyi təntənəli surətdə açılmışdır".

Heydər Əliyev böyük dramaturqun bir bahar çağında abidəsinin açılışında geniş nitq söyləmişdir. Ulu öndər demişdir: "C.Cabbarlının həyatı öz böyük bədii istedadını xalqa xidmət göstərməyə həsr etmiş, möhkəm əqidəli və coşqun ehtiraslı döyüşçünün, alovlu vətəndaşın həyatıdır".

Ümummilli lider Cəfər Cabbarlı yaradıcılığının və şəxsiyyətinin xüsusiyyətlərini ardıcıl səciyyələndirmiş, onun "yeni həyat yaradıcılığının mürəkkəb, çətin, lakin müzəffər prosesini və öz istedadını bütün qüdrəti ilə əks etdirmişdir, əsərlərində öz dövrünün fəlsəfəsini və psixologiyasını, dövlətlər arasındakı qırılmaz əqidəni, xalqın tarixi müqəddəratının rəşadətli səhifələrini açıb göstərmişdir".

Dahi rəhbər parlaq sənətkara şair, nasir, dramaturq kimi fəaliyyətində yüksək dəyər vermiş, onun dram sənətini müəyyən mənada Cəfər Cabbarlı teatrının bəhrəsi hesab etmişdir. Mirzə Fətəli Axundzadə və Cəlil Məmmədquluzadənin böyük ənənələrini inkişaf etdirmiş görkəmli sənətkar "teatr yaradıcılığının həqiqi novatoru olmuş, Azərbaycan səhnəsində bu gün gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur".

Heydər Əliyev Cəfər Cabbarlının çoxşaxəli fəaliyyətinin əsaslarına yaxından bələd olmuşdur. Böyük rəhbər demişdir: "Azərbaycanın kino sənətinin təşəkkülü, o illərin dram və opera səhnələrinin ən yaxşı tamaşaları, parlaq publisistika və dərin professional teatr tənqidi Cabbarlının adı ilə bağlıdır".

Dövlət xadimi Cəfər Cabbarlı irsinə sənət müxtəlifliyi, janr əlvanlığı baxımından dəyər vermiş, həm də onun bədii yaradıcılığını Azərbaycanda mövcud olmuş sosialist realizminə görə səciyyələndirmişdir: "Onun yeni ədəbiyyat və sənətin ən mühüm prinsiplərini qeyri-adi qüvvə və yetkinliklə təcəssüm etdirən əsərləri Azərbaycan ədəbiyyatı tarixində bütöv bir dövrü səciyyələndirən çox əhəmiyyətli ideya bədii hadisədir".

Heydər Əliyevin görkəmli ədib haqqında fikirləri ədəbi-tarixi xidmətin göstəricisidir. Dahi rəhbər deyirdi: "Cabbarlının rolu həm də bununla səciyyələnir ki, o öz əsərləri ilə Azərbaycan ədəbiyyatını mədəniyyət ustalarının yerinə yetirdiyi bədii-estetik vəzifələr səviyyəsinə qaldırmışdır".

## Həqiqətpərvər ədib

Cəfər Cabbarlı mənsub olduğu mühitin sosial-siyasi hadisələrinə həssas olmuş, ölkə quruculuğunun səsinə vaxtında səs vermiş, vətəndaş mövqeyini vaxtında ifadə etmişdir. Bu səbəbdən görkəmli dövlət xadimi demişdir: "Dövrün ictimai sifarişinə, ölkəni yenidən qurmaq uğrunda xalqın mübarizəsinə əsaslanan dəqiq, aydın, döyüşkən həyat mövqeyi - bir sənətkar və vətəndaş kimi Cabbarlının başlıca xüsusiyyətləri bunlardır".

Görkəmli ədib Cəfər Cabbarlı romantikmi, realistmi olmuşdur? Heydər Əliyev sovet həyat tərzinin qurucusu olduğundan Cəfər Cabbarlı irsində daha çox həyat reallığı axtarmışdır. "Bütün dolğun və çoxcəhətli real həyatla qırılmaz əlaqə - onun ədəbi irsinin ən qiymətli cəhətidir. Öz ideyalarını, süjetlərini, gözəl obrazlarını həyatımızdan alırdı. Onun əsərlərində zamanın ən vacib problemləri, gündəlik həyatın ən kəskin mərhələləri yüksək istedadla əks olunur və dərin fəlsəfi məna ilə səslənirdi".

"Sevil", "Almaz", "1905-ci ildə", "Yaşar" - unudulmaz dövrün salnaməsinin parlaq səhifələridir".

Heydər Əliyev onun realizmindən, yoxsa romantik pafosundan danışmışdır? Faktlar buna müsbət cavab verir. Ulu öndər onun əsərlərində yüksək pafos, vüsət, romantika duymuşdur: "Cəfər Cabbarlının yaradıcılıq vüsəti özünün zənginliyi və rəngarəngliyi ilə valeh edir. O, xalqımızın qədim dövrünün, azadlıq mübarizəsi tarixinin parlaq lövhələrini yaratmış, doğma yurdumuzda dəyişikliklərin pafosunu, zəmanəmizin qəhrəmanlarının qüdrət və əzəmətini tərənnüm etmiş, istismarçı cəmiyyətin, altun və mənsəbpərəstlik dünyasının eybəcərliklərini sarsıdıcı tənqid atəşinə tutmuşdur". Heydər Əliyev Cabbarlı pafosu və vüsətindən danışanda Şiller romantizmini xüsusi vurğulamışdır.

Cəfər Cabbarlı və qadın azadlığı mövzusu ümummilli liderin nitqində xüsusi yer tutmuş, "Cabbarlı Şərq qadınının məzlum vəziyyətinə qarşı bədii sözün nəhəng qüvvəsi ilə mübarizə aparmış, qadının azadlığa çıxmasını təsvir etmiş, unudulmaz qadın obrazlarının bütöv bir silsiləsini yaratmışdır", - deyə fikirlərini ifadə etmişdir.

## Aydın həyat mövqeyi

Heydər Əliyev Cəfər Cabbarlı irsinin sənət özəlliklərini nitqində dönə-dönə dəyərləndirmişdir. Məsələn, quruculuq uğrunda mübarizədə xalqın mübarizəsini, aydın həyat mövqeyini, həyatla qırılmaz əlaqəni, həyatdan gələn ideyanı, süjet və obraz fərdiliyini, yaradıcılıq vüsətini, pafosu, qəhrəmanların əzəmətini, dramaturgiyasının yüksək ideya qüvvəsini, prinsipiallığını və mənəvi paklığını, səhnə ilə tamaşaçı arasında həddi yox edən bədii təsir qüvvəsini, bütün zamanlar üçün aktuallığını...

Ulu öndər Cəfər Cabbarlı irsində həm də rus, dünya klassiklərinin ənənələrinin bədii-estetik mahiyyətini görmüş və qiymətləndirmişdir: "O, ustad bir tərcüməçi kimi böyük yaradıcılıq rəşadəti göstərən doğma Azərbaycan mədəniyyətinin üfüqlərini genişləndirmiş, Lev Tolstoyun qüdrətini və dühasını, Şekspirin fəlsəfi dərinliyini, Şillerin romantizmini, Maksim Qorkinin həqiqətpərvər yaradıcılığını Azərbaycan oxucusuna çatdırmışdır".

Heydər Əliyev sənətkarı "vahid, çoxmillətli sovet ədəbiyyatının banilərindən, təməl daşını qoyanlardan biri" hesab etmişdir: "Sənət dostları, Azərbaycan ziyalılarının bütün nəsilləri üçün xalqa sədaqət və fədakarlıqla xidmət etməyin yüksək ənənəvi örnəyi olan Cabbarlı eyni zamanda bu böyük quruculuğun iştirakçısı və carçısı idi".

Natiq Cəfər Cabbarlı irsinin varisliyindən də danışmış, bildirmişdir ki, "onun ənənələri, arzu və istəkləri müasir şairlərin və nasirlərin, teatr və kino xadimlərinin əsərlərində yaşayır". "Elə buna görə də Cabbarlı bizim müasirimizdir, indi də bizimlə, bütün ölkəmizlə birlikdə addımlayır".

Heydər Əliyev Cəfər Cabbarlı irsinin ölməzliyinin səbəbləri üzərində də dayanmışdır. Ümummilli lider dramaturqun sənət müasirliyini belə ifadə etmişdir: "Cabbarlı əsərlərinin yaradıcı qüvvəsi, həyatverici günəş enerjisi bu gün də vətənə xidmət göstərir və həyatın bugünkü parlaq, gur ahəngində biz Cəfər Cabbarlının mərd səsini aydın eşidirik".

Vağzalyanı meydanda yaradılmış yeni heykəltəraşlıq - arxitektura ansamblı görkəmli yazıçı və vətəndaşın obrazını bədii inandırıcılıqla əks etdirir. Azərbaycan paytaxtının hüsnünə yaraşıq verir.

Ümummilli lider Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşündə (21 sentyabr 1993) çıxış etmiş, ədəbi-tarixi şəxsiyyətlər haqqında danışarkən Cəfər Cabbarlıya bir daha xitab etmiş, onun əzəmətli sənətkar kimi toxunulmaz olduğuna diqqət çəkmiş və demişdir: "Cəfər Cabbarlı böyük yazıçımız, böyük dramaturqumuz, Azərbaycan mədəniyyətinə böyük töhfə vermiş adamdır. Axı o da "Müsavat" partiyasının üzvü olmuşdur. Bunu bilirsiz. Cəfər Cabbarlı sovet dövründə ən böyük əsərlər yazmış adamdır. Bizim nəslin əksəriyyəti onun əsərləri ilə tərbiyə olunmuşdur. "Od gəlini", "Yaşar", "Almaz", "1905-ci ildə", "Oqtay Eloğlu", "Solğun çiçəklər", "Firuzə" və s. nə qədər gözəl əsərlərdir. Sonralar mən eşidirdim, deyirdilər, yaxşı ki, Cəfər Cabbarlı 1934-cü ildə vəfat etdi, yoxsa həbs olunacaqdı. Axı bunlar yaraşan sözlər deyildir.

Ola bilər, həbs edərdilər. Məsələn, böyük filosof şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi yerinə qoydu".

## Mənim tanrım - gözəllik

Ümummilli lider Heydər Əliyev Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndəsi Cəfər Cabbarlının 100 illik yubileyinin keçirilməsi haqqında 23 fevral 1999-cu il tarixli sərəncam imzalamış, təşkilat komitəsi yaradılmışdır. Sərəncamda deyilirdi: "1999-cu ildə milli dramaturgiyanın banilərindən biri olan böyük yazıçı və dramaturq Cəfər Cabbarlının anadan olmasının 100 illiyi tamam olur. Cəfər Cabbarlı dərin zəkası və milli ruhu ilə səciyyələnən dahi sənətkar kimi özündən sonra zəngin bədii irs qoyub getmişdir. Azərbaycanda kino sənətinin inkişafında da Cəfər Cabbarlının xüsusi xidmətləri olmuşdur".

Sərəncamdan sonra Azərbaycan mətbuatında "Sabaha boylanan düha", "Mən bir solmaz yarpağam ki...", "Görkəmli dramaturqun əsərləri etnoqrafik mənbə kimi", "Cəfər Cabbarlının əsərlərində etnoqrafiya", "C.Cabbarlının kinossenari yaradıcılığı" və "Cəfər Cabbarlı yaradıcılığında satira və yumor komponentləri" və onlarca digər məqalələr dərc olunmuşdur.

9 may 2000-ci ildə "Azərbaycan" qəzetində Azərbaycan Akademik Milli Dram Teatrında "Aydın" pyesinin yeni quruluşda tamaşası haqqında geniş yazı verilmiş və tamaşaya baxmış ulu öndər Heydər Əliyevin çıxışı dərc edilmişdir. Dramaturqun övladı Gülarə xanım Cabbarlı atasının əsərlər toplusunu, "Mənim tanrım - gözəllik" kitabını dövlət başçısına hədiyyə etmişdi...

Ümummilli liderin başladığı ənənəni Prezident İlham Əliyev davam etdirmiş, görkəmli dramaturqun 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam vermişdir.

Hazırda respublikanın elm, təhsil, ədəbiyyat və mədəniyyət xadimləri bu tarixi və əlamətdar hadisəni ləyaqətlə davam etdirməkdədir. "Söz üzüyünün yanar almazı" (M.Müşfiq) olan Cəfər Cabbarlı baharda dünyaya gəlmişdi. Baharın gəlişində də dünyamıza yenidən qayıdır. Sonsuz açılan panoramda, yerlə göyün qovuşduğu hüdudsuz üfüqlərdə yol gedir, ədəbiyyat və mədəniyyət adamlarını ardınca aparır. Ruhu şad olsun!

***Əlizadə ƏSGƏRLİ,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor***

● Ev-muzeyi

# Sönməyən ocağın işığı

**Ev sahibinin baxışları divara vurulmuş saata dikilib. Saatın əqrəbləri hərəkətsizdir. Zaman dayanıb. Elə ev sahibi də keçmişdən baxır. Onun iri portretini sanki bilərəkdən bu köhnə divar saatı ilə üz-üzə qoyublar ki, zamanla həmsöhbət olsun... Yada salınacaq xatirələri isə çoxdur. Əvvəla, bu saatın özü bir tarixdir. Çünki onu portretdəki adama - böyük Cəfər Cabbarlıya 1918-ci ildə Qafqaz İslam Ordusunun komandanı Nuru paşa hədiyyə edib. O vaxt ki, cəmi on doqquz yaşlı Cəfər Cabbarlı artıq neçə-neçə ölməz əsərin müəllifi kimi tanınır, sevilirdi. Və bu sevgi heç bitməyəcəkdi...**



Sonralar sovet hakimiyyəti bir sıra əsərlərini, eləcə də Nuru paşanın başçılıq etdiyi ordunun erməni terroristlərinə qarşı qələbəsinə həsr etdiyi "Bakı müharibəsi", "Trablis müharibəsi", "Ədirnə fəthi" pyeslərini yaddaşlardan silməyə çalışacaqdı, ancaq Azərbaycan xalqı azadlıq mücadiləsi tarixində, ədəbiyyatının, mədəniyyətinin inkişafında ad qoymuş bütün övladları kimi, Cəfər Cabbarlını da sonsuz məhəbbəti və minnətdarlıq hissi ilə mükafatlandıracaqdı.

## Mücadilə adamı

İndi bura xeyli susqun görünür. Çünki Cəfər Cabbarlının ev-muzeyi təmirə dayanıb. Buna görə hazırda muzeyin ekspozisiyası nümayiş etdirilmir. Eksponatların çoxu yığışdırılıb.

Cəfər Cabbarlının ev-muzeyinin direktoru Qəmər Bağırova ilə həmsöhbətik. Qəmər xanım Cəfər Cabbarlının nəvəsidir. Nənəsi Sona xanımdan, anası Gülarə xanımdan eşitdiyi xatirələri günlərlə danışsa, bitməz. Deyir ki, bu ev işığı yandırıldığı ilk gündən qonaq-qaralı olub: "Babamgil sanki böyük ailə idilər. Hər kəsin öz ev-eşiyi olsa da, bir həyətdə çox mehriban yaşayırdılar".

Cəfər Cabbarlının 1899-cu il martın 20-də dünyaya göz açdığı, Xızıdakı evlərindən 1903-cü ildə köçüb Bakının Dağlı məhəlləsi adlanan yuxarı hissəsində məskunlaşmışdılar. Çox keçmədi ki, ailənin başçısı Qafar kişi vəfat etdi. Evin yükünü Şahbikə çəkməli oldu. O, dörd oğlunu əziyyətlə böyütdü. Heç olmasa kiçiyinin - Cəfərin oxuması üçün özünü oda-közə vurdu. Onu məhəllə mollasının, sonra isə Molla Qədirin yanında Quran öyrənməyə qoydu. Altı-yeddi yaşından anasının bişirdiyi çörəkləri alverçilərin dükanına daşımaqla ailəsinə kömək edən Cəfəri həyatın çətinlikləri ruhdan sala bilmədi. Təhsilini davam etdirdi. Erkən yaşlarından bədii yaradıcılıqla məşğul oldu. Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğunda gənc Cəfər də böyük ümidlərlə iştirak etdi.

## Yaşamağa tələsirdi...

Sanki od parçasıydı. Olduğu hər yerdə işıq saçırdı. Arzularının, ümidlərinin qanadlarını qırmaq mümkünsüz idi. Canından çox sevdiyi Azərbaycanın azadlıq günəşinin qarşısına qara buludlar sədd çəkəndə də ruhdan düşmədi, bolşeviklərin qəddar işğalçılıq siyasətlərindən çəkinmədi. Məsləkdaşları ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətini yenidən bərqərar etmək üçün gizli fəaliyyət apardı. Bu yolda başı bəlalar çəkdi, həbsxanalara düşdü...

Sovet hakimiyyəti Cəfər Cabbarlının kimliyini unutmasa da, bahar seli kimi bəndə-bərəyə sığmayan istedadını etiraf etməli oldu. Onun pyesləri yenə səhnəyə qoyuldu, tərcüməçiliklə məşğul oldu.

Tələsirdi. Sanki ona istedadı böyük səxavətlə verən taleyinin ömür payını əsirgəyəcəyindən xəbərdardır.

Uzun illər yaşadıqları evin yanında tikinti işləri görülürdü. 1930-cu ildə tikinti başa çatdı. Cəfər Cabbarlının sevimli sonbeşiyi - Gülarə xanım bu evdə dünyaya göz açdı. 1934-cü ildə Cəfər Cabbarlı burada vəfat etdi. Sona xanım, övladları bu evdə onun xatirələrini hər zaman canlı saxladılar.

## Burada nə varsa, Cabbarlıdan "danışır"

Bura 1979-cu ildən - Cabbarlının 80 illik yubileyindən ev-muzeyi kimi fəaliyyət göstərir. Bu il Cəfər Cabbarlının 120, muzeyin yaradılmasının 40 ili tamam olur.

...Açılış mərasimi 1982-ci il martın 22-də keçirildi. Cəfər Cabbarlının ev-muzeyinin ilk direktoru Gülarə Cabbarlı oldu. Gülarə xanım dörd yaşında itirdiyi, xəyallarında yaşatdığı atasından böyük məhəbbətlə danışırdı. 2018-ci ilin fevralında Cəfər Cabbarlının qızı



da dünyadan köçdü. İndi bu ev həm də Gülarə xanımın xatirələri ilə doludur.

120 illiyini qeyd etdiyimiz Cəfər Cabbarlının evi bu gün əsaslı təmirə, qayğıya möhtacdır. Muzeyin direktoru Qəmər Bağırova bildirir ki, 40 il qabaq bu mədəniyyət ocağı əlli yeddi eksponatla qapılarını açdı. Hazırda muzeydə on mindən çox nümunə qorunub saxlanılır. Muzeyin ekspozisiyasında ədibin həyat və yaradıcılığını əks etdirən sənədlər və fotoşəkillər, məktublar, özünə və ailəsinə məxsus şəxsi əşyalar, ayrı-ayrı tamaşalarına hazırlanan səhnə maketləri və maraqlı rəsm əsərləri var. Görkəmli şəxsiyyətlərin yazıçıya bağışladıqları hədiyyələr, həmçinin Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın hədiyyəsi olan divar saatı, asılqan, çarpayı, 1934-cü ildə yazıçıların I qurultayında rus yazıçısı Maksim Qorkinin hədiyyəsi olan qrammofon ekspozisiyada yer alıb. Muzeyin maraqlı eksponatlarından biri də 1946-cı ildə xalçaçı-rəssam Lətif Kərimovun eskizi ilə Gəncə şəhərində toxunmuş, üzərində ədibin şəkli, əsərlərinin adları həkk olunan böyük xalçadır. Həmçinin Cəfər Cabbarlı irsinin tədqiqinə dair elmi əsərlər də eksponatlar arasındadır. Yeni daxil olan materiallar hesabına muzeyin eksponatları gündən-günə zənginləşir.

Muzeyin direktoru deyir ki, Cabbarlının ev-muzeyi müvəqqəti olaraq qonaqlarını qəbul edə bilməsə də, fəaliyyətini davam etdirir, müxtəlif yerlərdə böyüməkdə olan gənc nəsillə - tələbələr və məktəblilərlə, ədəbiyyat həvəskarları ilə görüşlər keçirirlər. Cəfər Cabbarlının 120 illiyi ilə əlaqədar ayrı-ayrı tədbirlər təşkil edirlər.

Böyük millətsevər, mili mücahid, yazıçı, dramaturq, şair, tərcüməçi, kino xadimi, bəstəkar, aktyor Cəfər Cabbarlının çoxşaxəli ədəbi irsi, həyat və yaradıcılığını əks etdirən əsərləri, əşyaları Bakının mənzərəli yerlərindən birində, qədimliyini qoruyan evində yaradılmış muzeydə saxlanır. Bu ev özü də, sahibi kimi, tariximizin bir hissəsidir. Çünki burada olanlar Cəfər Cabbarlıdan "danışır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Yaddaş

# Cəfər Cabbarlı haqqında xatirələr

**Sabit Rəhman,** *yazıçı, dramaturq*:

"Orta məktəbdə oxuduğum zaman Cəfər Cabbarlını yalnız ikicə dəfə görə bilmişdim. Ancaq aramızda onun haqqında hər gün söhbət olurdu. Cəfər yaradıcılığı hamımızı maraqlandırmağa başlamışdı. Onun əsərlərindəki qanadlı sözlər, oynaq cümlələr dillərdə dolaşırdı. Belə bir istedadın meydana çıxması ürəklərimizdə qəribə sevinc doğurmuşdu. Tələbə konsertlərində "Aydın"dan, "Oqtay"dan monoloqlar oxunurdu. Elə gecə olmurdu ki, orada Cəfərin "Şərq" və ya "Ana" şeiri deklamasiya deyilməsin".

❖❖❖

"1934-cü il dekabrın 29-u ...Yazıçılar İttifaqının sədri Kazım Ələkbərli eyni zamanda Azərbaycan Dövlət Universiteinin rektoru vəzifəsini daşıyırdı. Mənim Dağlı məhəlləsindəki otağım çox yöndəmsiz idi. Yaşamaq mümkün deyildi. Bu barədə Kazım Ələkbərliyə demişdim. O da mənə tapşırmışdı ki, ayın 29-da universitetdə olacağam, gəl, dövlət telefonu ilə zəng edib sənin otaq məsələni danışım.

Getdim. Cəfər Cabbarlı Kazımın yanında oturmuşdu. Məni görüb hal-əhval tutdu və gəlməyimin səbəbini soruşdu. Kazım ona otaq məsələsini danışanda Cəfər gülüb dedi:

- Heç yerə zəng eləmək lazım deyil. Onun otağı məndə.

Dekabrın 31-də saat 10-a 20 dəqiqə qalmış universitetin pillələri ilə qalxdıqda qabağıma yazıçı Qafur Əfəndiyev (Kantemir) çıxdı. Yaylığı gözünə sıxmışdı, ağlayırdı. Nə olduğunu soruşduqda hıçqırıqlar içində cavab verdi:

- Cəfər Cabbarlı ölüb...

Son dəfə mən onu akademiyanın salonunda gördüm. Fəxri qarovulda dayanmışdıq, yoldaşlarım kim idi, yadımda deyil, cavan yazıçılardan bir dəstə düzəltmişdilər. Mən gözlərimi onun üzünə zilləmişdim. Öldüyünə inana bilmirdim. Mənə elə gəlirdi ki, indicə tərpənəcək, yenə də həmin məsum təbəssümlə gülümsəyəcək".

❖❖❖

**Nigar Rəfibəyli,** *xalq şairi:*

"34-cü ildə unudulmaz sənətkarımız Cəfər Cabbarlının ölüm xəbərini Moskvada aldıq. Gəncliyimin fırtınalı illərində mənə böyük qardaşı əvəz etmiş, sevdiyim bir sənətkarın ölümü məni sarsıtmışdı. Bir neçə il sonra isə dostumuz, qardaşımız Müşfiqin itkisi ürəyimizdə yeni bir yara açdı..."

● Şərqi

### Mən bir susmaz duyğuyam ki...

Mən bir solmaz yarpağam ki, çiçəkləri bəzərim,
Mən bir susmaz duyğuyam ki, ürəkləri gəzərim.
Mən səninçin ömrüm boyu cəfalara dözərim,
Sənsiz güllər açılmasın, axar çaylar dayansın,
Oxu, bülbül, bəlkə yarım oyansın!..

Mən bir sönməz ulduzam ki, daim işıq saçarım,
Mən bir oynaq bülbüləm ki, güldən-gülə uçarım,
Mən bir saqlı aləməm ki, sevgilərdir açarım.
Sənsiz günəş görünməsin, qaralara boyansın,
Oxu, bülbül, bəlkə yarım oyansın!..

Mən səninçin şəfəqlərdən süslü bir tac yaparım,
Yol ver mənə, gül dərmişəm, sevdiyimçin aparım!
Arar, arar, arar, arar, axır səni taparım;
Sənsiz solsun göy yarpaqlar, axar sular bulansın,
Oxu, bülbül, bəlkə yarım oyansın!..

# Türkdilli dövlətlərin Ticarət və Sənaye Palatası yaradılıb

Mayın 17-də Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin müvafiq işəgötürənlər təşkilatlarının, o cümlədən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə Türk Ticarət və Sənaye Palatası (TTSP) təsis edilmişdir.




Mərasimdə Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Qazaxıstan Respublikası Sahibkarlar Milli Palatası (QRSMP), Qırğız Respublikası Ticarət və Sənaye Palatası (QRTSP), Türkiyə Palatalar və Birjalar Birliyinin (TƏMPB) rəhbərləri iştirak etmişlər.

Tədbirdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi, səfir Bağdat Amreyev, Qazaxıstanın Baş naziri Askar Mamin, Qazaxıstanın Milli İqtisadiyyat naziri Ruslan Dalenov, "Atameken" Qazaxıstan Milli Sahibkarlar Konfederasiyasının İdarə heyətinin sədri Ablay Myrzahmedov, Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) prezidenti Rifat Hısarcıklıoğlu, Qırğız Respublikası Ticarət və Sənaye Palatasının vitse-prezidenti çıxış edərək, yeni qurulan beynəlxalq palatının regionun və ümumən türk dünyasının iqtisadi yüksəlişinə, əməkdaşlıq əlaqələrinin genişlənməsinə və dövlətlərimizin güclənməsinə təkan verəcəyini bildirmişlər.

Hazırda Türk Ticarət və Sənaye Palatasında Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK), Qazaxıstan Respublikası Sahibkarlar Milli Palatası (QRSMP), Qırğız Respublikası Ticarət və Sənaye Palatası (QRTSP), Türkiyə Palatalar və Birjalar Birliyi (TƏMPB) təsisçi üzvlərdir. Yaxın perspektivdə Türkmənistan, Özbəkistan Ticarət və Sənaye palataları, Macarıstanın müvafiq qurumu və digər qurumlar da təşkilata üzv ola bilərlər. Palatanın yaradılması tezliklə region ölkələrinin biznes sektorundakı əməkdaşlığı inkişaf etdirəcək və ölkələrimizin iqtisadi inteqrasiyasına şərait yaradacaqdır. İmzalanma mərasimində Azərbaycanın Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov və digər qonaqlar iştirak etmişlər. Toplantıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Almatı, Bişkek, Qəbələ, Bodrum, Astana və Cholpon Ata şəhərlərində keçirilmiş sammitlərində səsləndirilmiş önəmli təkliflərin reallaşdırılması üçün belə bir beynəlxalq platformaya ehtiyac olması vurğulanmışdır.

Türkdilli dövlətlərin növbəti yubiley zirvə görüşü bu ilin oktyabr ayında Bakı şəhərində keçirilməsi nəzərdə tutulub və bu görüş üzv dövlətlərdə kiçik və orta biznesin inkişaf perspektivlərinə həsr ediləcəkdir. Ümumiyyətlə, bölgə üzv dövlətlərinin biznes icmaları arasında iqtisadi əlaqələrin gücləndirilməsi və türkdilli dövlətlər arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının əsas hədəflərdəndir.

Türk Ticarət və Sənaye Palatasının əsas vəzifəsi kimi üzv ölkələr arasında mal və xidmətlərin mübadiləsinə mane olan amilləri, o cümlədən nəqliyyat problemlərini aradan qaldırmaqla bölgədə ticarətin asanlaşdırılmasını təmin etmək, xarici investisiya yatırımlarının artırılması məqsədilə investisiya mühitinin inkişafına kömək göstərmək və türkdilli dövlətlərin şirkətləri arasında yarana biləcək ticari mübahisələrin həllində qarşılıqlı yardım kimi məsələlər də nəzərdə tutulmuşdur.

Xatırladaq ki, Türkdilli Dövlətlərin Sənaye və Ticarət Palatasının yaradılması barədə razılıq 14 dekabr 2018-ci il tarixdə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlətlərin Biznes Şurasının görüşündə əldə olunmuşdu.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq, Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın balansında olan nəqliyyat vasitələrinin cari ildə hissələrin yenisi ilə əvəz olunmasına və ya təmiri, sürtkü materiallarının dəyişdirilməsi xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 24 may 2019-cu il saat 15:00 tarixədək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

*"Regionların inkişafına dəstək Qrant Proqramı" çərçivəsində*
*"İqtisadiyyat Nazirliyi üçün avadanlığın satın alınması" layihəsi üzrə*

### açıq tender elan edir

İşlərin yerinə yetirilməsi müddəti 45 gündür.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: qiymət, keyfiyyət, mühafizə imkanları, istifadə və xidmət rahatlığı, analoji layihələr üzrə təcrübə, texniki imkanlar, kadr potensialı.

Tenderdə iştirak etmək istəyənlər 200 (iki yüz) manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:
AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi
Əlaqələndirici şəxs: Günel Quliyeva, tel: 493-88-67 (daxili: 23-67)

| | |
|---|---|
| **Təşkilatın adı:** | **İqtisadiyyat Nazirliyi** |
| **VÖEN:** | **1700012751** |
| **Hesab:** | **AZ82CTRE00000000000002098501** |
| **Bank rekvizitləri:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **Kod:** | **210005** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **SWİFT:** | **CTREAZ22** |
| **Büdcə səviyyəsinin kodu:** | **7** |
| **İqtisadi təsnifat:** | **142340** |

**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi**
**Telefon: 493-88-67; Faks: 498-85-19**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-vergilər, sosial və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və sosial müdafiə orqanlarından arayışlar;
- iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə qalır);
- tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- müqaviləni yerinə yetirmək üçün tender iştirakçılarının lazımi texniki imkanları haqqında arayış;
- şərtlər toplusunda nəzərdə tutulan digər tələblər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 12 iyun 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 iyun 2019-cu il saat 17:00-dək İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 25 iyun 2019-cu il saat 15:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

AzerGold

# "AzerGold" QSC Finlandiya təcrübəsini nəzərdən keçirir

"AzerGold" QSC-nin mütəxəssisləri may ayının 13-dən 17-dək "Transeuropean Centre Limited" şirkəti tərəfindən Finlandiyanın Helsinki şəhərində təşkil olunan seminarda iştirak ediblər.

Tədbir çərçivəsində "AzerGold" QSC-nin təmsilçiləri geoloji kəşfiyyatın optimallaşdırılmasında istifadə olunan qabaqcıl təcrübə və innovativ texnologiyalar, kern (suxur nümunələrinin) saxlanma anbarının avtomatlaşdırılması və rəqəmsallaşdırılması, həmçinin istehsal və anbar təsərrüfatının avtomatlaşdırılması mövzularında məruzələr dinləyib.

Yokisivu mədəninin istehsal sahəsinə baş tutan səfər zamanı cəmiyyətin mütəxəssisləri mədənin fəaliyyəti, maliyyə və iqtisadi göstəriciləri, texnoloji sxemi, habelə geoloqlar tərəfindən geniş tətbiq edilən "GEOVIA Surpac™" proqram təminatı ilə yaxından tanış olublar.



Səfər çərçivəsində nümayəndə heyətinin Loppi şəhərində yerləşən Geoloji kəşfiyyat üzrə Finlandiya dövlət idarəsinin milli kern saxlanma anbarına gediblər. Burada cəmiyyətin nümayəndələri kern nümunələrinin skanlaşdırılması və analizi üzrə "Scanmobile lab" laboratoriyasının fəaliyyəti ilə tanış olub, həmçinin kern saxlanma anbarının avtomatlaşdırılması və rəqəmsallaşdırılmasının üstünlükləri, rəqəmsal texnologiyaların tətbiqi, XRF skan analizatorunun funksiya və tətbiq sahələri ətrafında geniş müzakirələr aparıblar.

Qeyd edək ki, geoloji kəşfiyyat işlərinin, istehsalat proseslərinin və digər fəaliyyət sahələrinin daha da optimallaşdırılması və təkmilləşdirilməsi məqsədilə "AzerGold" QSC təcrübə mübadiləsinə böyük önəm verir. Cəmiyyətin əməkdaşları beynəlxalq tədbirlərdə iştirakı və xarici ölkələrdə yerləşən istehsalat sahələrinə səfərləri zamanı mədənçilik sahəsində mövcud təcrübələri geniş tədqiq edir, qabaqcıl texnologiyaların və innovativ yanaşmaların Azərbaycanda tətbiqi perspektivlərini araşdırır.

***"Azərbaycan"***

# Bakıda bədii gimnastika üzrə 35-ci Avropa çempionatına yekun vurulub




Bakıda bədii gimnastika üzrə 35-ci Avropa çempionatına yekun vurulub. Böyük gimnastlar arasında fərdi proqramda ayrı-ayrı alətlər üzrə finallar maraqlı anlarla yadda qalıb.

AZƏRTAC xəbər verir ki, sonuncu iki alət - gürzlər və lentlə final yarışları da Rusiya gimnastlarının üstünlüyü ilə keçib.

Gürzlərlə yarışlarda Dina və Arina Averina bacıları Avropa çempionatında ilk iki pillədə qərarlaşıblar. Ukraynalı Vlada Nikolçenko bürünc medala sahib olub. Azərbaycan gimnastı Zöhrə Ağamirova isə səkkizinci yeri tutub.

Lentlə yarışlarda da Rusiya komandasının üzvləri Dina Averina və Aleksandra Soldatova fəxri kürsünün ilk iki pilləsinə qalxıblar. Bolqarıstanlı Boryana Kalein isə Avropa çempionatını üçüncü pillədə başa vurub. Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub.

Qala-konsertdən sonra bağlanış mərasimi keçirilib. Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə Avropa Gimnastika İttifaqının bayrağını qurumun prezidenti Fərid Qayıbova təqdim edib. F.Qayıbov isə bayrağı növbəti qitə birinciliyinə evsahibliyi edəcək Ukrayna nümayəndəsinə verib.

Dörd gün davam edən çempionatın fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənclərdən ibarət komandalar çıxış ediblər. Çempionata 35 ölkədən gimnastlar qatılıblar.

Xatırladaq ki, Bakı 2007-ci, 2009-cu və 2014-cü illərdə də bədii gimnastika üzrə Avropa çempionatına evsahibliyi edib.

# "Qəbələ" ölkə kubokunun qalibi oldu

Azərbaycan kuboku üzrə 2018-2019-cu il mövsümünün qalibi məlum olub. Mayın 19-da Naxçıvan Muxtar Respublikası stadionunda keçirilən final matçında "Qəbələ" və "Sumqayıt" komandaları üz-üzə gəlib.



"Kimyaçılar" ilk dəfə final həyəcanı yaşayırdısa, "qırmızı-qaralar" 4-cü dəfə həlledici oyunda iştirak edib. 2013-2014-cü, 2016-2017-ci və 2017-2018-ci il mövsümlərində finalda məğlub olan "Qəbələ" bu dəfə tilsimi qırıb. Stiven Jozef Monrozun 4-cü dəqiqədə vurduğu yeganə qol Sənan Qurbanovun yetirmələrinə kuboku qazandırıb.

Beləliklə, "Qəbələ" gələn mövsüm Azərbaycanı UEFA Avropa Liqasında təmsil etmək hüququna yiyələnib.

***"Azərbaycan"***

## "Azərpoçt" MMC

### açıq tender elan edir

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

LOT 1. Avtonəqliyyat vasitələrinə texniki xidmət, sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs: Tender Komissiyası, telefon: 493-56-00) ala bilərlər.

**1 LOT üzrə - 300 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M\h: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**SWIFT: AZPOAZ 22**
**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı:**
**AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- *Tenderdə iştirak etmək üçün ərizə;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *İddiaçının tam adı, hüquqı statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları;*
- *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmalar haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **01 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətinə isə möhürlənmiş ikiqat zərfdə **09 iyul 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **10 iyul 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:
**Split və salon tipli kondisionerlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **150 (bir yüz əlli) manat iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **13 iyun 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **24 iyun 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **25 iyun 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

---

## Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə

### *açıq tender elan edir*

**LOT 1:** Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması;

**LOT 2:** Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması;

**LOT 3:** Azərbaycan Respublikasının Mərkəzi Bankında dizayner studiyası üçün fotoaparatın və onun linzasının satın alınması.

Tender proseduru 10.07.2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

*- tenderdə iştirak üçün ərizə (iştirak ediləcək satınalma predmeti dəqiq göstərilməklə);*
*- iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış və s.) notariat qaydada təsdiq edilmiş surətləri;*
*- tender təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*- iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 23.08.2019-cu il tarixədək qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
*- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərin olmaması barədə dövlət orqanından arayış;*
*- iddiaçının müvafiq sahə üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu göstərilməklə) (LOT 1 və LOT 2 üzrə iştirak edən iddiaçılara münasibətdə);*
*- tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 09.07.2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 28.06.2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən 90 (doxsan) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları: qiymət və keyfiyyət amili (funksional yararlılıq).

Tenderdə iştirak etmək istəyən hər bir şəxs Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər.

Tender üzrə əlaqələndirici şəxs: Nəsib Pənahli, telefon: 493-11-22 (dax.tel:440, 384)
email: nasib_panahli@cbar.az.

***Tender komissiyası***

---

Təkrar

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsi

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT-1.** Əsaslı təmir

Tenderdə iştirak etmək üçün iddiaçılar 200 (iki yüz) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu tender komissiyasından ala bilərlər.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsi.
**Poçt ünvanı:**
**Azərbaycan Respublikası AZ 2000, Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi.**
**Tel.: (022) 266-29-48, 266-29-51**
**Fax: (022) 256-73-00**
**Elektron poçt: gence-medeniyyet@mail.ru**
**İdentifikasiya kodu (VÖEN): 2300144211**
**Hesablaşma ünvanı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**Hesab: AZ48CTRE00000000000002170602**
**VÖEN: 1401555071**
**S.W.İ.F.T.: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender təklifinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, yüksək keyfiyyətə, analoji işlər üzrə təcrübəyə, kadr potensialına, maliyyə və texniki imkanlara.

İddiaçılar tenderdə iştirak etmək üçün 4 iyun 2019-cu il saat 17:00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında bank arayışı;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Mənfəət vergisinin bəyannaməsi və Mənfəət vergisinin bəyannaməsinə əlavə № 1);*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- Analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*- Digər sənədlər.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) 13 iyun 2019-cu il saat 17:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ 2000, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi ünvanında yerləşən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsinə təqdim edilməlidir.

*- Tender təklifi (tender təklifi tender proseduru keçirildiyi tarixdən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- Tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur).*

İddiaçılarının tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tender zərfləri AZ 2000, Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi ünvanında yerləşən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsində 14 iyun 2019-cu il tarixdə saat 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar:

AZ 2000, Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi ünvanında yerləşən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsi.

**Telefon: (022) 266-29-51**

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

*Sumqayıt Şəhər İcra Hakimiyyəti körpələr evi-uşaq bağçaları üçün 2019-cu ilə "Avadanlığın alınması" və "Digər alışlar və xidmətlər"in kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.*

Maraqlanan təşkilatlar (018) 655-44-18 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 29 may 2019-cu il tarixədək Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında qəbul olunur.

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## Zelenski Ali Radanı buraxdı



Dünən Ukraynanın yeni Prezidenti Vladimir Zelenski Ali Radanın buraxıldığını və iki ay ərzində ölkədə parlament seçkilərinin keçiriləcəyini elan etmişdir. Bu barədə UNİAN agentliyi xəbər verir.

Zelenski andiçmə mərasimindən sonra Ali Radanın zalında Ukrayna xalqına ilk müraciətində demişdir: "Mən səkkizinci çağırış Ali Radanı buraxıram. Ukraynaya eşq olsun!"

Eyni zamanda, Zelenski deputatları səlahiyyətlərinin bitməsinə qalmış iki ay ərzində bir sıra vacib qanunları qəbul etməyə, o cümlədən parlamentarları toxunulmazlıqdan məhrum etməyə çağırmışdır: "Deputat toxunulmazlığının ləğvi və qanunsuz varlanmaya görə cinayət məsuliyyəti barədə qanunlar, habelə Seçki Məcəlləsinin qəbul olunmasını xahiş edirəm". O həmçinin Radaya seçkilər üzrə açıq seçki siyahılarının tətbiq olunmasını təkid etmişdir.

Prezident hazırkı çağırış Radasından Ukrayna Təhlükəsizlik Xidmətinin başçısını, baş prokuroru və müdafiə nazirini vəzifələrindən kənarlaşdırmağı tələb etmişdir. Zelenski hazırkı hökumətin üzvlərinə də müraciət edərək bildirmişdir ki, onların "gələcək nəsillər üçün yerləri boşaltmaq məqsədilə kağız-qələm götürmək vaxtı çatmışdır".

Konstitusiyaya görə, Ukrayna Ali Radasına növbədənkənar seçkilər Prezident tərəfindən təyin olunur və parlamentin səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması barədə qərar dərc olunduğu gündən sonra iki ay ərzində keçirilir.

## Misirdə partlayışda turistlər yaralandı

Misirdə məşhur Gizə piramidalarının yaxınlığında partlayış baş vermişdir. Həmin an orada Böyük Milli Muzeyi ziyarət etməyə gəlmiş turistləri daşıyan avtobus olmuşdur. Terror aktı nəticəsində 17 nəfər yaralanmışdır. Bu barədə "Sky News Arabia" telekanalı xəbər verir. Avtobusda əcnəbi turistlərin olub-olmaması barədə məlumat yoxdur.

Partlayışa görə hələ ki heç bir terror təşkilatı məsuliyyəti üzərinə götürməmişdir.

## Uqandada Albert gölündə facıə baş verdi

Uqandada Albert gölündə göyərtəsində yerli futbol komandasının oyunçuları və onların azarkeşləri olan mühərrikli qayıq batmışdır. Hadisə nəticəsində 2 nəfər həlak olmuş, 30 nəfərdən çox adam itkin düşmüşdür. Bu barədə şahidlərin dediklərinə istinadən "Daily Monitor" qəzeti xəbər verir.

Məlumata görə, qayıqda 50 nəfərdən çox adam olmuşdur. Qayıq sahilin təxminən 300 metrliyində batmışdır. Güman olunur ki, qəzaya səbəb gəminin həddən artıq yüklənməsi və qəflətən qalxmış küləkdir. Eyni zamanda, xilas olmuş qadınlardan biri jurnalistlərə bildirmişdir ki, qayıqda dəlik varmış və oradan su dolmuşdur.

Son məlumata görə, yerli sakinlər təxminən 20 nəfəri xilas etmişlər. Onlar xəstəxanaya yerləşdirilmişlər.

## Türkiyənin şərqində 77 qeyri-leqal miqrant tutuldu



Türkiyənin Van vilayətinin Gürpınar, İpək Yolu, Tuşba, Muradiyə və Çaldıran rayonlarında 77 qeyri-leqal miqrant saxlanılmışdır. Bu barədə Van Jandarma İdarəsi məlumat vermişdir.

Gürpınar rayonunda jandarmanın saxladığı avtobusda Türkiyə sərhədini qeyri-leqal keçmiş 20 əfqan, 14 pakistanlı, 2 iraqlı və 1 iranlı tutulmuşdur.

Bundan əlavə, İpək Yolu, Tuşba, Muradiyə və Çaldıran rayonlarında 39 əfqan və 1 pakistanlı qeyri-leqal miqrant saxlanmışdır. Onlar Regional Miqrasiya İdarəsinə təhvil verilmişlər.

Məhkəmənin qərarı ilə avtobusun sürücüsü həbs olunmuşdur.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisinin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları, tarix üzrə elmlər doktoru
**TOFİQ MƏHƏMMƏD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə bacısı
**ELZA FƏRƏCOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Ziyad Səmədzadə, Ağalar Vəliyev, Xanhüseyn Kazımlı, Cavid Qurbanov, Rüfət Quliyev, Əli Məsimli, İlham Əliyev, Əsabil Qasımov, Tahir Mirkişili, Mahir Abbaszadə, Aydın Hüseynov, Elçin Quliyev, Mirzəcan Xəlilov, İmamverdi İsmayılov və Şəmsəddin Hacıyev komitənin üzvü Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Xanlar Fətiyev deputat həmkarı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev və cəmiyyətin kollektivi keçmiş iş yoldaşları Xudayar Rəhimova anası
**MƏŞƏDİ XANIM ƏSGƏR QIZININ**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Əhliman Əmiraslanov İsgəndər Xəlilova anası
**ELMİRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev və Elman Məmmədov Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tələtüm Quliyev və Milli Məclis Aparatı Ümumi şöbəsinin əməkdaşları Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatının Analitik informasiya şöbəsinin müdiri Aydın Ağayev və şöbənin əməkdaşları iş yoldaşları Anar Əkbərova əmisi
**RAQİF ƏKBƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rafiq Məmmədhəsənov və Yevda Abramov Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi "Optika Mexanika" İB-nin baş mühasibi - İqtisadiyyat maliyyə və mühasibat uçotu idarəsinin rəisi Arif Qasımova anası
**ZEMFİRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəhman Salmanlı və Sabir Əliyev Bakı Şəhər Prokurorluğu Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Müşfiq Abdullayevə atası
**ORUC MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vahid Əhmədova qardaşı
**RAMİZ ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Teymur Quliyevə anası
**GÜSÜN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri və aparatın kollektivi AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə əzizi
**ELZA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektorluğu, professor-müəllim heyəti və tələbə kollektivi universitetin prorektoru, professor İlham Musayevə əzizi
**MƏRDAN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Bəhrəmtəpə melioservis idarəsinin rəisi Bakir Əliyevə anası
**AĞCA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyinin direktoru Mohuma Heraçiyevə qayınatası
**ŞAMİL CƏBRAYIL OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi akademiyanın I kurs tələbəsi
**QADİR KAMİL OĞLU BAXŞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri, professor Şirxan Səlimova qardaşı
**İBRAHİM SƏLİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Bakı şəhər Baş Səhiyyə İdarəsinin Binəqədi rayonu 25 nömrəli şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova və poliklinikanın kollektivi iş yoldaşları Azər Mirzəyevə atası
**HÜSEYN MİRZƏYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9055
Sifariş 1705
Qiyməti 40 qəpik